www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 avqust 2015-ci il Çərşənbə № 175 (6203) Qiymәti 40 qәpik

**Xəbər**

## Deputat Fəzail Ağamalının köməkçisi qəzada öldü

yazısı səh.6-da

**Gündəm**

### Qaz savaşında mühüm gəlişmə - Tehran üzünü Bakı və Ankaraya çevirir




İran Azərbaycanla neft-qaz danışıqlarına başladığını rəsmən bəyan etdi; işğalçı Ermənistanın kəmər arzuları və böyük tranzit gəlirləri ilə bağlı gözləntiləri puç olmaqdadır...

yazısı səh.13-də

### Müdafiə nazirimiz korrupsiyaya qarşı

yazısı səh.2-də

### Sabirabadda camış bir nəfəri öldürdü

yazısı səh.15-də

### Generalın övladlarını ölkədən qanunsuz çıxaranlara cəza istənilib

yazısı səh.11-də

### Beynəlxalq Bankı batıran bankirin özü də batır

yazısı səh.12-də

### Daha bir bankımız müflis oldu

yazısı səh.11-də

### YAP-ın seçki siyahısı ləngiyir, bəs digər partiyalar?

yazısı səh.6-da

### "Xəzərdə öldürücü virus" xəbərinə reaksiya gəldi

yazısı səh.11-də

*Siyavuş Novruzov:*

### "Bəzi idmançılarımızda müvəffəqiyyətdən başgicəllənməsi olur"

yazısı səh.4-də

### Xədicə İsmayılın məhkəməsində şahidlər dindirildi

yazısı səh.7-də

### Ərdoğanı devirmək istəyən prokuror Ermənistana qaçdı

yazısı səh.8-də

## Prezidentin nəzarətində olan cinayət işində şok gəlişmə

# JURNALİSTİN QANI YERDƏ QALMADI - 6 HƏBS!

Futbolçu Cavid Hüseynov və daha 5 nəfər saxlanıldı; onlar 3 ay müddətinə azadlıqdan məhrum edildi; cinayətin məhz futbolçunun təhriki ilə törədilməsi araşdırılır; Respublika Prokurorluğu və DİN birgə məlumat yaydı; Rasim Əliyevin üç mərasimində kimlər nə dedi...




yazısı səh.3-də

## Bağlanan "Zəngəzur" generalla konfliktdə imiş-77 nəfərin zəhərlənməsi...

Kütləvi zəhərlənmə ilə əlaqədar hadisənin baş verdiyi obyekti hadisədən əvvəl 3 milyona almaq istəyirmişlər, amma...

yazısı səh.11-də



### Neft Fondunun ağır mövsümü Şahmar Mövsümovu bitirə bilər

yazısı səh.10-da



*Arif Hacılı:*

### "Hakimiyyətin məni parlamentə buraxmayacağına əminəm"

yazısı səh.5-də



Şəhriyar Məcidzadə

### Həmidovlardan deputatlığa daha bir namizəd olacaq

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# Prezident Cəlilabadda bir sıra obyektlərdə olub

**Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad rayonuna səfər edib. AZƏRTAC-ın məlumatına görə, dövlət başçısı Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib. Dövlət başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsib.**

İlham Əliyev "Avanqard" MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə tanış olub. Sonra prezident İlham Əliyev keçmiş dövlət kənd təsərrüfatı istehsalı müəssisəsinin bazasında 1300 hektar torpaq sahəsi üzrə müsabiqənin qalibi olmuş "Avanqard" MMC tərəfindən yaradılmış iri fermer təsərrüfatının sahələrinə baxıb.

Dövlət başçısı yaradılmış imkanlardan səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarını verib.



Prezidenti İlham Əliyev Alar-Təzəkənd-Üçtəpə-Əliqasımlı-Cəfərxanlı avtomobil yolunun açılışında da iştirak edib. Avtomobil yolunun ümumi uzunluğu 21 kilometr, eni 8 metrdir. Yol dördüncü texniki dərəcəlidir. Bu yola 130 min kvadratmetrlik ikiqat asfalt döşənib. Altı yaşayış məntəqəsini, o cümlədən Alar, Təzəkənd, Üçtəpə, Əliqasımlı, Cəfərxanlı və Gülməmmədli kəndlərini əhatə edən yol ümumilikdə 23 mindən çox əhaliyə xidmət göstərəcək.

## Müdafiə Nazirliyi Azərbaycandakı "əfqanları" cəbhə bölgəsinə apardı



**Azərbaycandakı "Əfqanıstan müharibəsi veteranları" İctimai Birliyinin üzvləri Müdafiə Nazirliyinin dəstəyi ilə cəbhə bölgəsinin Tovuz-Qazax istiqamətində əsgərlər ilə görüşə yola düşüblər.**

APA-nın məlumatına görə, avqustun 11-də Əfqanıstan müharibəsi veteranları Müdafiə Nazirliyinin məsul şəxsləri ilə birgə Şəhidlər xiyabanını ziyarət ediblər.

Birliyin rəhbəri, Əfqanıstan müharibəsi veteranı Məhəmməd Vəliyev bildirib ki, veteranlar cəbhə bölgəsində əsgərlərlə görüşəcək, öz təcrübələrini onlarla bölüşəcək, hazırkı ruh yüksəkliyini daha da artırmağa çalışacaqlar.

O qeyd edib ki, bu, Müdafiə Nazirliyinin tədbirlər planına uyğun həyata keçirilir.

Daha sonra veteranlar cəbhə bölgəsinə yola düşüblər.

## Dünya Bankından bədbin neft proqnozu: gələn il daha betər olacaq




**İrana qarşı beynəlxalq sanksiyaların götürülməsindən sonra dünya bazarlarında neftin qiyməti daha da aşağı düşəcək. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Dünya Bankı proqnoz verib.**

Bankın proqnozuna görə, İranın neft bazarına tam qayıtmasından sonra alıcılara hər gün indikindən 1 milyon barrel çox neft təklif ediləcək. Nəticədə isə 2016-cı ildə neftin qiyməti daha 10 dollar aşağı düşəcək, yaxud indiki qiymətin 21 faizi qədər azalacaq.

Hazırda dünya bazarında təklif tələbatı üstələyir. Dünya bazarlarına çıxarılan neftin həcmi indiki tələbatı il yarım qabaqlayır.

İrana qarşı sanksiyalar hələ götürülməsə də Tehranla Qərb arasında nüvə anlaşması qiymətlərə mənfi təsir göstərib. Habelə Çində yuanın-milli valyutanın devalvasiyası neftin ucuzlaşmasına təsir edən amillərdir. İran ilin sonundan etibarən neft ixracını artırmağa hazırlaşır.

## Dərbəndin başçısı istefa verdi


İmam Yaraliyev

**Bu il öz 2000 illik yubileyini qeyd edən Dərbəndin başçısı İmam Yaraliyev çərşənbə axşamı istefa verib. Oxu.az xəbər verir ki, bu barədə RİA Novosti-yə şəhər meriyasından bildiriblər.**

"Başçı istefa verib, işdən getməyinin rəsmi səbəbləri barədə günün ikinci yarısında məlumat veriləcək", - agentliyin həmsöhbəti bildirib.

Daha öncə Yaraliyevə dair cinayət işi açılmışdı, o, federal torpaqların paylanması zamanı öz səlahiyyətlərindən sui-istifadə etməkdə şübhəli bilinirdi.

Yanvar ayının ortasında Dərbənd meriyasında axtarış aparılıb. Məlum olduğu kimi "torpaq məsələlərinə dair sənədlər" yoxlanılıb.

## ATƏT DTİHB-nin missiyası Azərbaycanda səfərdədir

**ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) parlament seçkiləri ilə bağlı ehtiyacları qiymətləndirmə missiyası Azərbaycanda səfərdədir.**

Bu barədə APA-ya qurumdan bildirilib. Məlumata əsasən, onların səfəri bu gün başlayıb və həftənin axırına kimi Azərbaycanda olacaqlar.

Xatırladaq ki, DTİHB-in daha əvvəl verdiyi açıqlamada missiyanın Azərbaycanda seçkilərlə bağlı maraqlı tərəflər, o cümlədən hakimiyyət və siyasi partiya nümayəndələri, müstəqil namizədlər, vətəndaş cəmiyyəti üzvləri və media nümayəndələri ilə görüşəcəyi deyilib.

## Banklar filial açmağı təxirə salıb

**Banklar yeni filialların açılması planlarını təxirə salıb. 2015-ci ilin 2-ci rübündə Azərbaycanda fəaliyyət göstərmiş 45 bank tərəfindən cəmi 3 filial açılmışdır. Aprel-İyun aylarında bankların yerli filiallarının sayı 760-dan 763-ə çıxıb.**

Banklar bu ilin birinci yarısında isə cəmi 11 filial istifadəyə veriblər. Cari ilin Aprel-İyun aylarında bankların şöbələrinin sayı 160-dan 163-ə artıb.

Müqayisə üçün qeyd edək ki, banklar ötən ilin birinci yarısında 26, ikinci rübündə isə 16 filial açmışdılar.

Digər maraqlı fakt. 2015-ci ilin ikinci rübündə 157 bank olmayan kredit təşkilatı (BOKT) tərəfindən 15 filial açılıb. Nəticədə də BOKT-ların filiallarının sayı 212-dən 227-yə çıxıb.

Qeyd edək ki, 157 bank olmayan kredit təşkilatının 103-ü kredit ittifaqıdır.


Muxtar Maniyev

## Xalq artisti Muxtar Maniyevin ayağı amputasiya olundu

**Xalq artisti Muxtar Maniyevin ayağı amputasiya olunub. M.Maniyevin xanımı Nəsibə Maniyevanın APA-ya verdiyi məlumata görə, xalq artisti bu gün Elmi Cərrahiyyə Mərkəzində əməliyyat olunub: "Əməliyyat sol ayağından olunub. Sol ayaq topuq nahiyyəsindən amputasiya olunub. Bir müddət əvvəl barmağında qaralma var idi. Biz düşünürdük ki, ən pis halda barmaq kəsilər, amma mümkün olmadı. Həkimlər əməliyyatı vacib hesab etdilər. Əgər ayaq amputasiya olunmasaydı, qanda zəhərlənmə ola bilərdi, bu da yuxarı ətrafların sərədan çıxmasına gətirib çıxarardı".**

Həyat yoldaşı bildirib ki, M.Maniyev hazırda reanimasiyadadır: "Ümid edirik ki, reanimasiyadan palataya yerləşdiriləsi çox çəkməyəcək. Baş həkimə də, həkimlərə də danışmışıq, əllərindən nə gəlirsə, edirlər".

**Qeyd edək ki, M.Maniyev avqustun 6-da xəstəxanaya yerləşdirilib.**



## Kənan Hacının müayinəsi bu gün olacaq

### Jurnalistin həmkarları onun sağalması üçün bank hesabı açıblar

**Yazar-jurnalist Kənan Hacıya Səhiyyə Nazirliyinin nümayəndəsi zəng edib, pulsuz müayinədən keçməsi üçün tapşırıq verməsi barəsində xəbər vermişdik. Jurnalistin həyat yoldaşı İlhamə Əliməmmədova musavat.com-a bildirib ki, avqustun 11-də Səhiyyə Nazirliyinin Tibbi Profilaktika şöbəsinin müdir müavini Yusif Babayevin dəvəti ilə müayinədən keçmək üçün 19 saylı klinikaya gediblər. Lakin bəzi texniki problemlər üzündən müayinə baş tutmayıb. Yazarın həyat yoldaşı bildirib ki, avqustun 12-də müayinə üçün bir də gedəcəklər.**

Yazıçı-jurnalist Aysel Əlizadə özünün facebook divarında Kənan Hacı ilə bağlı bir müraciət paylaşıb. Musavat.com həmin müraciəti təqdim edir:

"Dostlar, həmkarımız Kənan Hacıya dəstək kampaniyasına başlamaq lazımdı. O, Hepatit C-dən əziyyət çəkir və belə görürəm ki, onu burda sağaltmayacaqlar. Adamı belə ağır vəziyyətdə boş-boş ora-bura göndərirlər. Lütfən, kimin nə köməyi dəyə bilərsə, əsirgəməsin. Durumu ağırlaşır. Birləşib onu Türkiyəyə müalicəyə göndərək. Başqa çarə görmürəm. Bizim bir-birimizdən yapışmaqdan başqa əlacımız yoxdu. Həmkarlarımdan dəstək istəyirəm. Bu işi birlikdə həll edək. Bu nömrə ilə əlaqə saxlaya bilərsiz: 055-731-50-10, 077 - 731-50-10

Hesab nömrəsi də açılıb:
Bank hesabı: AZN
HESAB SAHİBİ: ƏLİMƏMMƏDOVA İLHAMƏ ŞİRBALA QIZI
HESAB NÖMRƏSİ: 3801000017574315152
İBAN: AZ82JBBK03801000017574315152
BANKIN ADI: Bank of Baku ASC-nin "YASAMAL" filialı
VÖEN:1700038881
KOD: 506322
Müxbir hesab: AZ27NABZ01350100000000007944
S.W.I.F.T: JBBKAZ22
Telefon: (99412) 4338515
Fax: (99412) 4338515

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən isə musavat.com-a bildirildi ki, Kənan Hacının müayinəsi avqustun 12-də olacaq. Mediaya ətraflı məlumat həmin tarixdə veriləcək.

❑ Aygün SƏFƏRLİ

## Şamaxıda qohumunu öldürən şəxs yaxalanıb

**Şamaxıda qətl törədilib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 10-da Şamaxı şəhərində yaşayan Şahlar Mürşüdov evində münaqişə zəminində Ağsu rayon sakini, qohumu İlkin Novruzova bıçaqla xəsarət yetirib "Mercedes" markalı avtomobildə hadisə yerini tərk edib. Xəstəxanaya yerləşdirilmiş İ.Novruzov orada ölüb.**

Görülmüş tədbirlərlə Ş.Mürşüdov Baş Dövlət Yol Polisi İdarəsinin Qaradağ rayonu ərazisindəki stasionar postunda saxlanılıb və Rayon Polis Şöbəsinə təhvil verilib.

## "KİA Azərbaycan" satış mərkəzlərini bağladı

**Avtomobillərin bahalaşması və kredit şərtlərinin sərtləşdirilməsi nəticəsində avtomobillərin təkrar bazarda satışı 55%, yeni avtomobillərin satışı isə 80%-ə yaxın azalıb.**

Bunu "KİA Motors Azərbaycan" şirkətinin icraçı direktoru Zəka Əlibəyov bildirib. Şirkət rəsmisi fins.az-a deyib ki, satışların azalması səbəbindən "KİA Motors" bəzi satış mərkəzlərini bağlamalı olub.

"Bu proses davam edəcək. İlin sonuna kimi 2-3 satış mərkəzi bağlanacaq. Satışlar azaldığı üçün Badamdar, "AMAY" ticarət mərkəzinin yaxınlığında və Masallıdakı rəsmi dilerlərimiz bağlanıb. Bu, normal haldır ki, satışlar azalanda xərcləri ödəyə bilmədiyi üçün dillerlər bağlanır" - deyə Z.Əlibəyov vurğulayıb.

## Ermənilər Ağdamın işğal olunan kəndlərində yenidən yanğın törədiblər

**Ermənilər Ağdamın işğal olunmuş Baş Qərvənd kəndi ərazisində yenidən yanğın törədiblər.**

APA-nın Qarabağ bürosunun xəbərinə görə, alov Baş Qərvənd ərazi vahidliyinin Bayramlar kəndində qeydə alınıb. Ermənilər tərəfindən dağıdılmış yaşayış məntəqəsinin mərkəzi hissəsində müşahidə olunan yanğın təmas xəttinə yaxın ərazilərdən görünür.

## Bakı Teleqüllə Kompleksinin təhlükəsizliyi gücləndirildi

**Azərbaycan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Teleradio" İstehsalat Birliyi (İB) Bakı Teleqüllə Kompleksini 24 saatlıq videonəzarət sistemi ilə təmin edib.**

"Trend" xəbər verir ki, bu barədə İB-nin saytında məlumat yayılıb.

Məlumatda bildirilir ki, nəzarətin təmin olunması üçün monitorinq sistemi quraşdırılıb və istismara verilib. Bununla da, Bakı Telqüllə Kompleksinin istənilən nöqtəsində baş verəcək yanğın hadisəsini gözlə təyin etmək və qarşısını dərhal almaq mümkün olacaq.

# Prezidentin nəzarətində olan cinayət işində şok gəlişmə

**Jurnalist Rasim Əliyevin qətlində günahlandırılan "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynov avqustun 11-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə 3 ay müddətinə azadlıqdan məhrum edilib.**



# Jurnalistin qanı yerdə qalmadı - 6 həbs!

## Futbolçu Cavid Hüseynov və daha 5 nəfər saxlanıldı; onlar 3 ay müddətinə azadlıqdan məhrum edildi; cinayətin məhz futbolçunun təhriki ilə törədilməsi araşdırılır; Respublika Prokurorluğu və DİN birgə məlumat yaydı; Rasim Əliyevin üç mərasimində kimlər nə dedi...

Hakim Elşad Şamayevin sədrliyi ilə keçirilən prosesdə Səbayel Rayon Prokurorluğunun C.Hüseynov barəsində təqdimatına baxılıb. 3 ay müddətinə həbs olunan futbolçuya cinayəti bilib gizlətmə maddəsi ilə (Cinayət Məcəlləsinin 307.1, 307.2) ittiham elan olunub. C.Hüseynovun vəkili Adəm Məmmədov məlumatı musavat.com-a təsdiqləyib. Vəkil bildirib ki, futbolçu barəsində həbs qərarından apelyasiya şikayəti veriləcək. Avqustun 6-da Daxili İşlər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb. Məlumatda deyilir ki, dövlət başçısının xüsusi nəzarətində olan və böyük ictimai rezonans doğurmuş bu ağır cinayətin qısa müddətdə açılması təmin edilib, onu törətməkdə şübhəli bilinən şəxslər müəyyənləşdirilərək istintaqa cəlb olunublar.

İlkin araşdırmalarla müəyyən edilib ki, 1988-ci ildə Cəbrayıl rayonunda anadan olmuş Cavid Hüseynov avqustun 6-da «Qəbələ» futbol klubunun heyətində Kipr Respublikasının «Apollon» futbol klubu ilə Bakı şəhərində keçirilən oyunda iştirakından sonra jurnalistlərin suallarını cavablandırarkən yol verdiyi hərəkətlərə görə şəxsi facebook səhifəsində tənqidi fikirlər yazmış Ann.tv-nin videoreportyoru Rasim Əliyevə zəng edərək ondan təkzib verməyi tələb edib.

Bundan sonra C.Hüseynovun bibisi oğlu 1994-cü ildə Bakı şəhərində anadan olmuş Elşən İsmayılov da R.Əliyevə zəng edərək təkzib verməsini tələb etmiş və bu zəmində aralarında mübahisə yaranmışdır. Nəticədə, Elşən İsmayılov, R.Əliyevdən qisas almaq məqsədilə, özünə yaxın olan Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevdən ibarət qrup yaradaraq avqustun 8-də saat 16 radələrində Bayıl qəsəbəsində «Bayıl market» mağazasının qarşısında onunla görüşmüşdür. Onlar R.Əliyevə əl və ayaq zərbələri ilə daxili orqanlarının zədələnməsinə səbəb olan çoxsaylı ağır dərəcəli bədən xəsarətləri yetirmiş və hadisə yerindən qaçmışlar. R.Əliyevin təcili-tibbi yardım vasitəsilə Bakı Kliniki Tibbi Mərkəzə çatdırılmasına və üzərində müalicə və əməliyyat aparılmasına baxmayaraq, həyatını xilas etmək mümkün olmamış və avqustun 9-da saat 05 radələrində orada vəfat etmişdir.

İstintaq zamanı R.Əliyevə məxsus İPHONE-5 markalı mobil telefonun cinayətin iştirakçısı Arif Əliyev tərəfindən sındırılıb yaşadığı Bakıxanov qəsəbəsində yerləşən «Arzu» şadlıq sarayının yaxınlığındakı zibilliyə atılması müəyyən olunmuş və maddi sübut kimi götürülərək cinayət işinə əlavə edilmişdir.

Digər maddi sübutların da tapılması istiqamətində tədbirlər görülür.

E.İsmayılov, S.Mustafayev, C.Məmmədov, K.Mədətov və A.Əliyev Cinayət Məcəlləsinin 126.3-cü maddəsində nəzərdə tutulan əməli törətməkdə təqsirli bilinmiş və barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilmişdir.

İstintaqın hazırkı mərhələsində Cavid Hüseynovun, bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Cinayətin C.Hüseynovun təhriki ilə törədilməsi fərziyyəsi də istintaq-əməliyyat qrupu tərəfindən araşdırılır. İstintaqın gedişi və həyata keçirilən tədbirlər Azərbaycan prezidentinə mütəmadi məruzə olunur.

***

Avqustun 11-də jurnalistin üç mərasimi keçirilib. Günəşli qəsəbəsində baş tutan mərasimdə mərhumun dostları və qohumları iştirak edib. Yas mərasimində iştirak edənlər arasında Mətbuat Şurasının sədri Əflatun Amaşov, Müsavat Partiyasının başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli, Milli Şuranın sədri Cəmil Həsənli də və digər tanınmış şəxslər olub.

Mərhumun atası musavat.com-a açıqlamasında yas mərasimin keçirilməsi ilə bağlı dövlətdən heç bir maddi dəstək almadıqlarını bildirib. Amma yas mərasiminin keçirildiyi zalın rəhbərliyi mərhumun yaxınlarına 50 faiz güzəşt edib. Bu isə Laçın rayon icra hakimiyyətinin başçısı Akif Səlimovun tapşırığı ilə olub. Jurnalistin atası Bakı Şəhər Baş Prokurorluğuna dəvət edildiyini, lakin mərasimlə əlaqədar gedə bilmədiyini bildirib.

**Mərasimdə iştirak edən Mətbuat Şurasının sədri Əflatun Amaşov da musavat.com-a açıqlama verib.** Ə.Amaşov baş verən hadisəni Mətbuat Şurası olaraq sərt şəkildə qınadıqlarını və günahkarların ən qısa zamanda hüquq müstəvisində cəzalandırılmasını istədiklərini bildirdi: "Hadisəni prezident İlham Əliyev hadisəni nəzarətə götürüb. Baş Prokurorluğa və Daxili İşlər Nazirliyinə tapşırıq verib. Hadisənin qısa zamanda araşdırılacağına və günahkarların cəzalandırılacağına inanıram".

Jurnalistin sevdiyi qız, Dövlət Dillər Universitetinin məzunu, 25 yaşlı Gülər Abbasova da ilk dəfə olaraq Rasim Əliyevin ölümündən danışıb. AzadlıqRadiosuna danışan G.Abbasova Rasimin həkimlərin məsuliyyətsizliyindən öldüyünü deyib.

Rasim döyüldükdən sonra ilk olaraq G.Abbasovaya xəbər verib: "Döyüldüyü gün axşam 6-ya qalmış zəng vurdu ki, "xəstəxanadayam, "Semaşko"da, mamamgilə xəbər ver". Dedim, nə olub, dedi ki, "döyüblər, yüngül bir şeydir". O, mənə dərdini deyən deyildi. Dedi, narahat olma".

**Rasimlə bir neçə il əvvəl tanış olduqlarını deyən G.Abbasova payızda nişanlanmağı düşündüklərini deyib**: "Onunla münasibətim olduğunu yalnız anam bilirdi, atamgil və qardaşım bilmirdilər. Amma Rasimin ailəsi onun mənimlə münasibətini bilirdi, anası da onu tələsdirirmiş. Rasim evlərinin üstündə ikinci mərtəbə qaldırırdı və biz ev hazır olandan sonra evlənməyi planlaşdırırdıq. Bu payız nişanımız olacaqdı. Rasim çox saf adam idi. Özündən əvvəl qarşıdakı adamı fikirləşərdi. Adamın fikrini təhlil edirdi, onun fikrinə haqq qazandırırdı, sonra öz fikrini deyirdi. Çox hərtərəfli düşünən, baş verən hadisələri hərtərəfli təhlil edən bir adam idi. Rasim başqa idi..."

❑ **İlkin MURADOV**

# Toyuna hazırlaşan jurnalistə toy tutanlar



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Jurnalist Rasim Əliyevin gənc yaşında linç edilməsi açıq səmada şimşək effekti verdi, ölkə gündəmini dərhal dəyişdi. Ən başlıcası, Azərbaycanda siyasi sistemin əsas qüsurlarını da gündəmə gətirdi. Azərbaycanda hüquqi dərəbəyliyin, imkanlı zümrəyə məxsus harınların olan-qalan dəyərlərə, azadlıqlara, insanlığa hansı ictimai təhlükəni kəsb etdiyini ortaya qoydu.**

Eyni zamanda bu özbaşınalığın hakimiyyətin özünə də ciddi başağrısı və təhlükə mənbəyi olduğuna şübhə yeri saxlamadı. Görünür, hakimiyyətin bu dəfə daha operativ hərəkət eləməsi həm də sonuncu acı gerçəklikdən qaynaqlanır.

Doğru, jurnalistlər, qələm əhlinin digər nümayəndələri başqa ölkələrdə də qətlə yetirilir. Onların arasında hətta demokratik rejimli olanı var; analoji faciəvi insidentlərdən heç kim, heç bir ölkə sığortalanmayıb. Ancaq önəmlisi, belə qətllərin isti izlərlə, dövlətin, hakimiyyətin çevik iradəsi altında, heç bir qrup marağı güdmədən açılması, günahkar(lar)ın ədalətli mühakimə edilməsidir. Axı söhbət öncəliklə ölkənin adından, daha sonra hakimiyyətə inam və ictimai maraqlardan gedir.

İnsafən, Rasim Əliyevin qətlinə Azərbaycan iqtidarı ən yüksək səviyyədə reaksiya verdi, prezident İlham Əliyev cinayət işini öz şəxsi nəzarətə götürdü, isti izlərlə həbslər aparıldı və s. Bütün bunlar normaldır və hakimiyyətin beynəlxalq imic barədə də düşündüyünü göstərməklə yanaşı, ölkədə mediaya, jurnalistin həyatına hər halda dəyər verildiyinin işartısıdır.

Ancaq istənilən hüquqi cəzanın əsas hədəfi cinayət hallarının profilaktikasıdır, başqalarına verilən dərsdir, topluma çatdırılan mesajdır. Ki, belə vəhşi əməllər bir daha təkrarlanmasın, yaxud onların sayı minimuma ensin. İş də ondadır ki, əgər il yarım öncə jurnalist Fərahim İlqaroğlunu döyənlər və həmin cinayəti sifariş edənlər də oliqarx qohumları olmasına rəğmən, layiqli cəzalarını alsaydılar, yəqin ki, 31 yaşlı Rasim Əliyev indi sağ idi və Fərahim kimi öz toyuna tədarük görürdü *(Fərahim də aldığı xəsarətlərdən ölə bilərdi).*

Yaxud "Monitor" jurnalının redaktoru Elmar Hüseynovun qətli vaxtında açılsaydı, hakimiyyət indiki kimi o zaman da cinayət işini dərhal və xüsusi nəzarətə götürsəydi, heç bir siyasi təmənna, qrup maraqları güdmədən addımlar atsaydı, ailənin yeganə tək oğul övladı olan Rasim Əliyev yenə də indi şad-xürrəm nişanlısı ilə birgə idi və şad gününə hazırlaşırdı. Kaş ki...

Gözlənildiyi kimi, gənc bir jurnalistin qəddarcasına həyatdan məhrum edilməsi beynəlxalq demokratik ictimaiyyətdə sərt reaksiya doğurdu. Artıq Avropa Şurası, Avropa Birliyi cinayəti pisləyib, günahkarların tezliklə hüquqi məsuliyyətə cəlb edilməsini tələb edib.

Azərbaycana, onun hakimiyyətinə Qərbdə, Avropada olan bəlli münasibəti nəzərə alanda Rasim Əliyevin ölümünə verilən bu reaksiyalara təəccüblənməyə dəymir. Axı, söhbət həm də təməl insan haqlarından olan mətbuat, söz-ifadə azadlıqlarından gedir.

Şəksiz ki, düşmən Ermənistan bu faktdan da Azərbaycan əleyhinə yararlanmağa, ölkəmizin imicinə zərbə vurmağa çalışacaq. O üzdən cinayət hadisəsi ilə bağlı günahkarların tezliklə öz layiqli cəzalarına çatdırılması ikiqat-üçqat əhəmiyyət daşıyır indi.

Bu xüsusda hakimiyyət üçün ölkənin nüfuzu gerçəkdən də önəmlidirsə (buna inanmaq istəyirik), o zaman məntiq diktə edir ki, gərək Rasim Əliyevin qatilləri və cinayətin sifarişçisinin cəzalandırılmasının ardınca hakimiyyət haqsız yerə tutulan jurnalistləri, siyasiləri və QHT təmsilçilərini də tezliklə azadlığa buraxsın. Dövlət nə vaxt sarsılır? Cinayət cəzasız qalanda, günahsız cəzalananda.

**Əfsus ki, sarsılan tək dövlət olmur, ailələr, nişanlılar da sarsılır, məhv olur...**

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015



# Həmidovlardan daha bir namizəd olacaq

**Bir müddət əvvəl keçmiş daxili işlər naziri İsgəndər Həmidov bu il keçiriləcək parlament seçkilərində namizədliyini irəli sürəcəyini açıqladı. Sabiq nazirin bildirdiyinə görə, o, namizədliyini işğal altında olan rayonların birindən irəli sürmək niyyətindədir.**

Bu il keçiriləcək parlament seçkilərində Həmidovlardan daha bir namizədin olduğu haqda məlumat yayılıb. "Yeni Müsavat"a daxil olan məlumata görə İsgəndər Həmidovun qardaşı, Tərtər rayonunun sabiq icra başçısı Sərdar Həmidovun oğlu, etatist.com internet qəzetinin baş redaktoru Şəhriyar Məcidzadə də parlament seçkilərində iştirak etmək niyyətindədir. Mənbənin bildirdiyinə görə, Ş.Məcidzadə əmisindən fərqli olaraq namizədliyini işğal altında olan rayonların birindən yox, Tərtər rayonundan irəli sürəcək.

Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verən **etatist.com-un baş redaktoru Şəhriyar Məcidzadə** namizədliyini irəli sürəcəyi ilə bağlı məlumatı birmənalı olaraq təsdiqləməsə də, təkzib də etməyib:

"Bu il keçiriləcək parlament seçkiləri bütövlükdə ölkə üçün əhəmiyyətlidir. Artıq xeyli vaxtdır ki, Azərbaycana qarşı kampaniya aparılır. Fikrimcə azad keçiriləcək seçkilər Azərbaycan əleyhinə kampaniya aparanlara qarşı yaxşı cavab ola bilər. Bu məsələdə vətəndaşlar da, ictimaiyyət arasında tanınan şəxslər də xüsusi olaraq fəal olmalıdır. Seçkilərdə yapmacıq yox, gerçək nüfuzu olan şəxslərin iştirak etməsi həm cəmiyyət, həm dövlətin beynəlxalq nüfuzu üçün kifayət qədər əhəmiyyətlidir. Digər bütün seçkilərdən fərqli olaraq, bu il cəmiyyətdə çəkisi olan şəxslərin seçkilərdə iştirak etməsi milli maraqlara xidmət etmək deməkdir.

Seçkilərdə iştirak etməklə bağlı bir neçə təşübbüs qrupundan təklif almışam. Bu təklifləri dəyərləndirirəm. Parlament seçkilərində iştirak etmək niyyətim var, amma hələ tam olaraq qərar verilməyib. Müzakirələr, məsləhətləşmələr aparırıq. Müzakirələrin nəticəsində qərarımı açıqlayacağam".

Hansı seçki dairəsindən namizədliyini irəli sürəcəyi ilə bağlı isə Ş. Məcidzadə bildirdi ki, "Əgər seçkidə iştirak etməyimlə bağlı qərar verilsə namizədliyimi 95 saylı Tərtər seçki dairəsindən irəli sürəcəyəm".

"Builki parlament seçkilərində İsgəndər Həmidovun da iştirak etmək niyyətinin olduğunu necə dəyərləndirirsiniz? Ziddiyyət ortaya çıxmır?" sualına cavab verən Şəhriyar Məcidzadə "Düşünürəm ki, burda ziddiyyətə əsas olacaq heç nə yoxdur. İsgəndər Həmidovun belə bir niyyətinin olması onun hüquqdur", deyə cavab verib.

❑ Musavat.com

# YAP-çı deputat döyülərək öldürülən jurnalistdən danışdı

## Siyavuş Novruzov: "Təəssüf ki, bəzi idmançılarımızda müvəffəqiyyətdən başgicəllənməsi olur"

**Jurnalist Rasim Əliyevin "Qəbələ" futbol klubunun oyunçusu Cavid Hüseynovun bibisioğlu Elşən İsmayılov və digər 6 nəfər tərəfindən döyülərək, öldürülməsi mətbu və siyasi çevrələrdə əsas müzakirə mövzusudur. Bu hadisəyə hakimiyyət düşərgəsinin də mövqeyi ortadadır. Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mövzu ilə bağlı indiyədək iki dəfə açıqlama verib.**

Həmçinin Azərbaycan prezidenti İlham Əliyev jurnalistin öldürülməsini şəxsən nəzarətə götürüb. Dövlət başçısı bununla bağlı Daxili İşlər Nazirliyinə və Baş Prokurorluğa hadisənin obyektiv araşdırılması üçün tapşırıqlar verib.

Məsələ ilə YAP-çı deputat, Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü, eyni zamanda parlamentin İntizam komissiyasının sədri Siyavuş Novruzovla danışdıq.

***- Siyavuş müəllim, sizin Rasim Əliyevin ölümü ilə bağlı mövqeyiniz necədir?***

- Mən bu hadisəni birmənalı şəkildə pisləyir. Lakin bunun siyasiləşdirilməsinin, hakimiyyətin ünvanına ittihamların səsləndirilməsinin əleyhinəyəm. Baş verən bu hadisəni mən idmançı və jurnalist məsələsi kimi qiymətləndirmirəm. Çünki onlarla bu kimi hadisələr baş verir. Kiminsə arasında mübahisə yaranır, iş böyüyür, dava-dalaş olur, bəzən bu dava-dalaş sonda cinayətlə yekunlaşır. Bəzi hallarda vətəndaşlarımız da, media da bu cür hadisələri həddindən artıq böyüdür. İndiki halda tərəflərdən biri jurnalist olduğu üçün olay bu qədər rezonans doğurub.

***- Bizim idmançılar özlərini xüsusi imtiyazlı şəxs kimi aparırlar. Buna nə deyərdiz?***

- Mən bəzi idmançıların özlərini qeyri-təvazökar aparmasını pisləyirəm. Onlar əldə etdikləri uğuru gələcəkdə daha da genişləndirmək istiqamətində fəaliyyət göstərməkdənsə, bunun əksini edirlər. Düzdür, özünü maksimum təmkinlə, təvazökar şəkildə aparan xeyli sayda idmançılarımız da var. Amma təəssüf ki, hamısı belə deyil.

***- Sizcə, bunun səbəbi nədir?***

- Bəzi idmançılarda əldə etdikləri nailiyyətlərdən baş gicəllənməsi əmələ gəlir. Rusiyada, Türkiyədə, başqa ölkələrdə baxırsan ki, üçqat, dördqat Avropa çempionları var. Və hələ də idmana davam edirlər. Bizdə də belə idmançılar var. Namiq Abdullayev, Fərid Mansurov, İlham Zəkiyev kimi dəfələrlə uğur qazanmış idmançılarımız çoxdur. Hansı ki, çox sadə, təvazökar insandırlar.



**"Yaxınlarının yasına getməyən, qəbrini ziyarət etməyən bəzi siyasətçilər bu hadisədən iqtidarın əleyhinə istifadə etməyə çalışırlar. Amma biləsiniz, Rasimi öldürənlər məhz bu hakimiyyətin siyasi iradəsi sayəsində öz layiqli cəzalarını alacaqlar"**

Amma elə idmançılarımız da var ki, əldə etdikləri nailiyyətlərdən onlarda baş gicəllənməsi əmələ gəlib. Və nəticə etibarı ilə həm idmana, həm onları sevənlərə, dəstəkləyən şəxslərə ziyan gətirirlər. Bu cür də olmaz. İnsan təvazökar olmalıdır. Onlar bilməlidirlər ki, dövlətin onlara mükafat verməsi, sırf həvəsləndirmək, zəhmətlərinə qiymətdir. Bundan başqa qara niyyətlər üçün istifadə etmək olmaz. Əgər dövlət öz idmançısına sahib çıxırsa, onun nailiyyətini mükafatlandırırsa, bu o demək deyil ki, həmin idmançı bundan özünün şəxsi mənafeyi naminə istifadə etməlidir, gücünü sadə vətəndaşların üstündə sınamalıdır. Bir daha təkrar edirəm, Azərbaycan bayrağını yüksəltmiş xeyli sayda idmançılarımız var ki, onlar həddən artıq təvazökardırlar. Ətrafdakı insanlara zərər vermədən öz peşələrini layiqincə davam etdirirlər.

***- Jurnalistin ölümü ilə bağlı reaksiyalar sizi qane edirmi?***

- Hazırda araşdırmalar gedir. Bu üzdən tələsməyin, olaya emosional formada reaksiya verməyin tərəfdarı deyiləm. Cənab prezident də məsələyə özünün birmənalı mövqeyini bildirib. Hüquq-mühafizə orqanlarına lazımi tapşırıqlar verilib. Amma araşdırma bitmədən artıq Avropa Şurasının nümayəndələri bəyanat veriblər. Təbii ki, bu, qərəzli yanaşmadır. İstintaq gedir. Məsələ hələ tam aydın deyil. Bəlkə heç o adamların günahı yoxdur? Lap bu hadisə deyildiyi kimi olubsa, bunun iqtidara nə aidiyyəti var? Hər adamın yanına bir polis əməkdaşı qoymaq olmaz axı. İqtidar özü maraqlıdır ki, cinayəti törədənlər qanun qarşısında cavab versinlər. Hüquqi baxımdan cəzalarını alsınlar".

***- Öldürülən şəxsin jurnalist olması istər-istəməz hakimiyyəti qınaq obyektinə çevirir.***

- O da vətəndaşdır, cəmiyyətin bir üzvüdür. Jurnalist də kiminləsə mübahisəsi edə, dalaşa bilər. Çünki o da yekunda insandır. Amma görürük ki, bu hadisədən başqa məqsədlər üçün istifadə edənlər olur. Bu hadisə Rasim Əliyevin peşə fəaliyyəti ilə bağlı deyil. Ola bilər ki, kimsə kimisə təhqir edib. Birinin əsəbi dözür, digərinin dözmür. Siyasətçiləri gecə-gündüz təhqir edirlər. Tənqid başqa şeydir, olmalıdır. Amma bir də görürük ki, insanların ailə üzvlərinə qədər söyürlər. Birinin qohumu dözür, digərinin dözmür.

***- Sosial və peşəkar mediada ən çox tənqidlərə məruz qalan siyasətçilərdən birisiniz. Elə olubmu ki, kimisə cəzalandırmaq ürəyinizdən keçsin?***

- Mən elə şeylərə fikir vermirəm. İnsan siyasətə gələndə hər şeyi gözə almalıdır. Bilməlidir ki, onu qarşıda nələr gözləyir. Ona şər də ata bilərlər, ünvanına böhtan da deyilər, təhqir də olunar.

***- YAP dünyasını dəyişmiş jurnalist Rasim Əliyevin ailəsinə baş çəkməyi planlaşdırırmı?***

- Təbii ki... Amma mən görürəm ki, heç öz yaxınlarının yasına getməyən, qəbrini ziyarət etməyən bəzi siyasi təşkilat nümayəndələri bu hadisədən istifadə edirlər. Hamıdan qabaq yas yerinə gedib, mediaya müsahibə verirlər. Özlərini göstərirlər. Biz yas mərasiminə getsək də, el qaydası ilə hərəkət edəcəyik. Baş sağlığı vermək üçün gedəcəyik. Mediaya bunu reklam etmək niyyətimiz yoxdur.

Mən Rasimin ailəsinə, valideynlərinə başsağlığı verirəm. Allah bu gənc vətəndaşımıza rəhmət eləsin. Onu öldürənlər məhz bu iqtidarın iradəsi sayəsində özlərinin layiqli cəzasını alacaqlar. Buna əminəm.

❑ Məhəmməd TÜRKMƏN

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# "Ciddi siyasi dəyişikliklər olmasa hakimiyyətin məni parlamentə buraxmayacağına əminəm"

## Arif Hacılı: "Hesab eləmirəm ki, hakimiyyətin İsa Qəmbərə olan münasibəti mənə olan münasibətindən fərqlidir, hətta bəzi hallarda hakimiyyətin mənə münasibəti daha sərt, daha aqressiv olub"

**Azərbaycandakı siyasi partiyalarda 1 noyabr parlament seçkilərinə hazırlıq prosesi gedir. Ölkənin aparıcı müxalifət təşkilatı olan Müsavat Partiyası da seçkiyə hazırlıq istiqamətində işlərini intensivləşdirib. Müsavat Partiyasının başqanı Arif Hacılı ilə müsahibəmizdə də parlament seçkiləri ilə bağlı aktuallıq daşıyan suallara aydınlıq gətirməyə çalışdıq.**



***- Arif bəy, seçki kampaniyasının başlanmasına az vaxt qalıb. Ölkədəki hazırkı seçki mühiti, müxalifətin vəziyyəti və hakimiyyətin davranışları 1 noyabr parlament seçkiləri ilə bağlı nə vəd edir?***

- Təəssüf ki, hakimiyyətin uzun illər apardığı siyasət nəticəsində Azərbaycan cəmiyyətində seçkilərə maraq demək olar tükənib. Seçkiqabağı demokratik şəraitin, demokratik seçkilər keçirmək üçün müvafiq qanunvericilik bazasının yoxluğu, eyni zamanda seçkilər nəticəsində insanların səs verdiyi hər hansı şəxsin millət vəkili mandatı alacağına ümidin sıfıra yaxın olması insanlarda seçki prosesinə etimadı azaldıb. Ona görə Azərbaycan cəmiyyəti seçkilərə əvvəlki kimi maraq göstərmir. 1 noyabr parlament seçkiləri ərəfəsində hansısa ciddi dəyişiklik baş verməsə, cəmiyyətin bu seçkiyə marağının əvvəlki seçkilərdən daha yüksək olacağına inanmıram.

***- Müsavat seçkidə iştirak etmək qərarı verib. Sizin dediyiniz kimi bir durum olduğu halda seçkiyə getmək nə üçündür?***

- Belə bəyanatlar verilir ki, guya hansısa siyasi qüvvələr seçkiləri boykot edir. Əslində ölkədə indi elə bir şərait mövcuddur ki, seçkilərdə iştirak edərək siyasi prosesə qoşulmaq seçkiləri boykot etməkdən daha səmərəlidir. Çünki boykot siyasəti faktiki olaraq hər hansı bir siyasi qüvvənin və ya siyasi xadimin özünü siyasi prosesindən kənarlaşdırması ilə nəticələnir. Seçkilərin boykot edilməsi əslində seçki prosesini dayandırmaq və daha demokratik seçkilər keçirilməsinə nail olmaq uğrunda mübarizə anlamına gəlməlidir. Təəssüf ki, Azərbaycanda seçkiləri boykot faktiki olaraq boykot edən tərəfin özünü prosesdən kənarda qoyması ilə bitir. Biz 1998-ci ildə və 2008-ci ildə keçirilən prezident seçkilərini boykot etmişik. Hesab edirəm ki, Azərbaycan müxalifətinin bu seçkiləri boykot etməsi nə müxalifətin, nə də cəmiyyətin mənafelərinə uyğun olmadı. Ona görə də biz seçki prosesində iştirak edərək müəyyən dəyişikliklərə nail olmaq, öz fikirlərimizi cəmiyyətə çatdırmaq, ən azı seçki prosesində olan qüsurları, saxtakarlıqları aşkara çıxararaq onlara qarşı mübarizə aparmaq istiqamətindəki fəaliyyəti daha səmərəli, daha düzgün sayırıq.

***- Seçkini boykot etmək mövqeyində hələ ki yalnız Milli Şura və AXCP çıxış edir. Milli Şuranın rəhbərliyi bəyan edir ki, ölkədəki hazırkı durumda seçkiyə getmək hakimiyyətin seçki oyununda iştirak eləmək olar. Sizcə, seçkiyə getmək doğrudanmı hakimiyyətin oyununda iştirak eləməkdir.***

- Hər hansı ciddi siyasi qüvvə hələlik seçkiləri boykot edəcəyi barədə birmənalı qərar qəbul etməyib. Ona görə də bu mövzuda geniş şərhlər vermək istəməzdim. Hakimiyyətin oyununda iştirakla bağlı deyilən fikirlərin heç bir əsası yoxdur. 2008-ci ildə biz prezident seçkilərində iştirak etmədik və hesab edirəm ki, Azərbaycan hakimiyyəti üçün ən asan, ən uğurlu, ən az tənqid olunan seçkilər də məhz 2008-ci il prezident seçkiləri oldu. 2013-cü ilin prezident seçkiləri ərəfəsi ölkədə olan siyasi vəziyyət heç də 2008-ci il prezident seçkiləri ərəfəsində ölkədə olan siyasi vəziyyətdən fərqlənmirdi, yəni daha yaxşı bir siyasi şərait mövcud deyildi. Ancaq Azərbaycan müxalifəti 2013-cü il seçkilərində iştirak etdi. Mən hesab etmirəm ki, biz 2013-cü ildə hakimiyyətin oyununda iştirak edirdik. Hər halda ciddi siyasi kampaniya təşkil edərək hakimiyyətin oyununu pozmağa çalışdıq və bunun nəticəsində bütün dünyanın diqqəti Azərbaycandakı seçki prosesinə yönəldi, cəmiyyətdə seçki prosesinə müəyyən maraq yarandı, demokratik qüvvələrin ideyaları, zəruri hesab etdiyi mesajları xalqa çatdırıldı. Bugünki hakimiyyətin heç də xalq arasında iddia etdikləri kimi nüfuza malik olmadığı aşkara çıxarıldı. Biz indikindən ciddi fərqlənməyən siyasi şəraitdə, 2013-cü il prezident seçkilərində iştirak etmişik. Bu düzgün qərar idi. İndi də müxalifət qüvvələrinin seçkilərdə iştirakı hakimiyyətin maraqlarına uyğun deyil. Bunun əksini iddia etmək isə qərəzli mövqedir.

***- Bunun əksini iddia edib seçkini boykot etmək, hər kəsi də buna çağırmaq hakimiyyətin çörəyinin üstünə yağ çəkmək deyilmi?***

- Mən belə uzağa gedən nəticələr çıxarmaq istəməzdim. Hərənin, hər siyasi təşkilatın öz siyasi taktikası var. Təbii ki, indiki siyasi şəraitdə seçkilərdə iştirak etmək həddən artıq çətindir. Çünki Azərbaycan hakimiyyəti müxalifətin resurslarını mümkün qədər məhdudlaşdırıb. Seçkilərdə iştirak həddən artıq enerji, maliyyə vəsaiti, müəyyən riskli fəaliyyət tələb edir. Hesab edirəm ki, indiki şəraitdə yalnız boykot yolu ilə ölkədə demokratik inkişafa ümid bəsləmək sadəlövhlük olardı. Müsavat Partiyası seçki prosesində iştirak edərək qeyd olunan nöqsanlara qarşı mübarizə aparacaq. Hesab edirəm ki, istənilən halda bu, baykotla müqayisədə daha effektli nəticələr verəcək. Bir daha deyirəm 1998-ci il prezident seçkiləri ilə 2003-cü il prezident seçkilərini, 2008-ci il prezident seçkiləri ilə 2013-cü il prezident seçkilərini müqayisə etmək kifayətdir ki, seçkilərdə iştirakın daha səmərəli olduğu görünsün.

> **"Boykot siyasəti faktiki olaraq hər hansı bir siyasi qüvvənin və ya siyasi xadimin özünü siyasi prosesdən kənarlaşdırması ilə nəticələnir"**

***- Müsavat Partiyası builki seçkilərə nə ilə gedir? Resurslar, imkanlar, hazırlıqlar nə yerdədir?***

- Müsavat Partiyasının əsas resurslarından biri partiyanın strukturlarıdır. Müsavat Partiyası yeganə partiyadır ki, respublikanın hər yerində ərazi təşkilatları var. Bizim əsas resurslarımızdan biri də cəmiyyətdə olan nüfuzumuzdur. Biz əminik ki, minimum demokratik seçki şəraitində Müsavat Partiyası istər parlament, istər prezident seçkilərində qələbə çalmağa qadir olan partiyadır. Mən tam əminliklə deyirəm ki, Müsavat Partiyasının deputatlığa namizədlər siyahısı bütün digər siyasi qurumların namizədlər siyahısından daha cəlbedici olacaq. Bu siyahıda daha təcrübəli siyasətçilər, Azərbaycan cəmiyyətində nüfuzu daha çox olan siyasi-ictimai xadimlər, jurnalistlər, ziyalılar, mütəxəssislər təmsil olunacaq. Bu resurslardan istifadə edərək biz ölkədə ümumi siyasi ab-havanı dəyişdirməyə çalışacağıq. Eyni zamanda, hesab edirəm ki, Müsavat Partiyası seçki kampaniyasının hər bir mərhələsində fəal iştirak etmək yolu ilə baş verən ümumi proseslərin mənzərəsini həm Azərbaycan ictimaiyyətinə, həm beynəlxalq ictimaiyyətə çatdırmağa nail olacaq. Bunun üçün bizim resurslarımız kifayət qədərdir. Müsavat Partiyasında heç bir haqqı ödənilmədən könüllü olaraq fəaliyyət göstərən minlərlə fəal var və onların əksəriyyəti bu illər ərzində çox ciddi seçki mütəxəssislərinə çevriliblər. Bu mütəxəssislər Azərbaycan hakimiyyətinin bu seçki kampaniyasını da asanlıqla və sakitliklə yola verərək yekunlaşdırmasına imkan verməməyi bacaracaqlar.

***- İndiyə Müsavatın neçə dairədən deputatlığa namizədi bəllidir? Bütün dairələr əhatə olunacaq? Siyahıda ancaq Müsavatın üzvləridir, yoxsa partiyanın üzvü olmayan şəxslər də yer alır?***

- 80-ə yaxın dairə üzrə namizədlər ilkin olaraq müəyyənləşib.Avqustun 29-da Müsavat Məclisinin növbədənkənar sessiyasında namizədlərin siyahısı təsdiq olunacaq.

Hələlik Müsavat Partiyasının üzvlərinin namizədliyi məsələsi müzakirə olunur. Ancaq digər siyasi partiyalara mənsub olan, heç bir siyasi partiyanın üzvü olmayan şəxslərin də namizədliyinin müdafiə edilməsi istisna deyil. Müsavat Partiyasının Məclisinin qəbul etdiyi sənədlərə görə Müsavat Partiyasının ümumi ideoloji siyasi xəttinə uyğun fəaliyyət göstərəcəyi barədə öhdəlik götürən istənilən şəxsin namizədliyi partiya Məclinin müzakirəsinə çıxarıla bilər.

***- İsa Qəmbərin və sizin hansı dairədən namizəd olacağınız bəllidirmi?***

- İsa Qəmbərə və mənə seçkilərdə hansı nəticələrə nail olmağımızdan asılı olmayaraq deputat mandatı verilməməsi görünür, Əliyevlər hakimiyyətinin ümumi idarəçilik prinsiplərinə daxil olan məsələlərdən biridir. Bu amili nəzərə alaraq bizim seçkilərdə iştirak etməmeyimiz də mümkün ola bilərdi. Lakin biz bu seçkilərdə yalnız mandat uğrunda mübarizə aparmaq niyyətində deyilik. Eyni zamanda, Azərbaycanın avtoritar rejimini ölkədə seçkiləri saxtalaşdırmaq yolu ilə yenidən parlament formalaşdırması işində maneçilik törətmək niyyətimiz var. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan cəmiyyətini ölkədə olan seçki prosesində yol verilən naqisliklərə qarşı mübarizəyə cəlb edək. Ona görə də seçkilərdə iştirak etmək niyyətindəyik. Həm İsa bəyə, həm mənə müxtəlif dairələrdən namizəd olmaq təklifləri verilib. Mənə konkret olaraq 9, 33, 34 və ya 110-111-ci seçki dairələrindən namizədliyimi irəli sürmək təklif olunub. Bu dairələrdən birindən namizədliyimi irəli sürəcəyim istisna deyil. İsa bəyə də müxtəlif dairələrdən namizəd olmaq təklifləri irəli sürülüb. Ancaq mən bilirəm ki, o, Bakı şəhərində olan seçki dairələrinin birindən namizədliyini irəli sürmək qərarındadır.



> **"Müxalifət qüvvələrinin seçkilərdə iştirakı hazırda hakimiyyətin maraqlarına uyğun deyil"**

***- İsa Qəmbərə və sizə seçkilərdə hansı nəticələrə nail olmağınızdan asılı olmayaraq deputat mandatı verilməməsini Əliyevlər hakimiyyətinin ümumi idarəçilik prinsiplərinə daxil olan məsələlərdən biri adlandırdınız. Belə fikirlər də var ki, hakimiyyət üçün əsas məsələ İsa Qəmbərin nə olur-olsun parlamentə düşməməsidir. İsa Qəmbərin namizədliyi Müsavatdan olmayacağı halda Müsavat parlamentə buraxıla bilər, özü də bu dəfə Arif Hacılının təmsilçiliyi ilə... Bunu nəzərə alaraq addımlar atılması mümkündürmü?***

- Hesab eləmirəm ki, hakimiyyətin İsa Qəmbərə olan münasibəti mənə olan münasibətindən fərqlidir. Həttə bəzi hallarda, hakimiyyətin mənə münasibəti daha sərt, daha aqressiv olub. Bu illər ərzində hakimiyyətin mənə qarşı münasibətinin necə olduğu cəmiyyətə məlumdur. İkincisi, indi seçkilərdə iştirak etmək bir mükafat deyil. Seçkilərdə iştirak etmək həddən artıq çətindir. Hər kəs üçün böyük problemlər yaradır. Biz bəzi partiya üzvlərindən öz namizədlərini irəli sürmələri üçün xahiş edirik. Yəni indiki ağır siyasi şəraitdə heç də hamı Azərbaycanda mövcud hakimiyyətin dəstəklədiyi qorxunc, mafioz namizədlərlə üz-üzə gəlmək istəmir. Belə olan şəraitdə bizim öz namizədliyimizi irəli sürməyərək kənarda dayanmağımız düzgün olmazdı. Bu baxımdan həm mən, həm də İsa bəy öz namizədliyimizi irəli sürmək niyyətindəyik. Xatırlayırsınızsa, 2010-cu ildə mən namizədliyimi irəli sürməməyimin mümkün olduğu barədə fikir səsləndirmişdim. Ancaq sonradan ümumi fikir belə oldu ki, əgər müxalifətin əsas namizədləri bu seçkilərdə iştirak etməyəcəklərsə, bu Azərbaycan cəmiyyətində ruh düşkünlüyü yarada bilər. İkincisi də, indi siyasi şərait o dövrdə olduğundan daha kəskindir. Şəxsən özüm üçün indiki şəraitdə seçki prosesində kənarda durmağı mübarizənin ön cəbhəsindən çəkilmək kimi dəyərləndirirəm. Ancaq ciddi siyasi dəyişikliklər olmayacaqsa hakimiyyətin məni parlamentə buraxmayacağına əminəm.

***- Qələbə çalacağınız halda mandatınızın tanınacağına az da olsa inamınız yoxdur?***

*(Davamı gələn sayımızda)*

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015



## Müdafiə naziri korrupsiyaya qarşı

### Hüquq müdafiəçisi Elçin Behbudovla görüşən Zakir Həsənov "korrupsiyaya bulaşan hər bir şəxs məsuliyyətə cəlb olunacaq" deyib

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçi Elçin Behbudov və müavini Elçin Şirinov müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüşüb. E.Behbudov APA-ya bildirib ki, görüşdə komitə tərəfindən aparılan monitorinqin nəticələri barədə müdafiə nazirinə məlumat verib. Hüquq müdafiəçisi Z.Həsənovun diqqətinə çatdırıb ki, Silahlı Qüvvələrdə qeyri-döyüş şəraitindəki itkilər ötən illərlə müqayisədə xeyli azalıb: "Müdafiə nazirinə Silahlı Qüvvələrdə korrupsiyaya qarşı aparılan mübarizə ilə bağlı suallar verdim. Nazir qeyd etdi ki, vəzifəsindən, rütbəsindən və keçmişindən asılı olmayaraq, korrupsiyaya bulaşan hər bir şəxs məsuliyyətə cəlb olunacaq".**

E.Behbudov cəbhədəki son durumla bağlı da Z.Həsənovla fikir mübadiləsi apardığını deyib: "Nazir qeyd etdi ki, cəbhədə təşəbbüs Azərbaycan Ordusunun əlindədir. Azərbaycan Ordusunda ruh yüksəkliyi var və düşmən bunu görür. Ona görə də ermənilər təlaş və qorxu içərisindədirlər: O, "müdafiə naziri kimi sizi əmin edirəm ki, çox yaxın zamanda biz işğal altındakı torpaqlarımızı azad edəcəyik" deyə bildirdi".

**E.Behbudov həmçinin qeyd edib ki, cəbhə bölgəsinə tez-tez səfər edən Z.Həsənov daim hərbçilərin şəraiti ilə maraqlanır:** "Nazir dedi ki, əsgərlərin yeməyi, geyimi və şəraiti yaxşıdır. Zabitlərin ev məsələsi də daim diqqət mərkəzindədir və ilbəil bu problemlər də öz müsbət həllini tapır".

## Fəhmin Hacıyev ürək əməliyyatı keçirdi


Fəhmin Hacıyev

**Daxili Qoşunların keçmiş komandanı Fəhmin Hacıyev Kiyevdə ürək əməliyyatı keçirib. Musavat.com xəbər verir ki, əməliyyat Kiyevin kardioloji klinikalarından birində keçirilib. Həkimlər əməliyyatın uğurla keçdiyini, durumun stabil olduğunu bildirir.**

Fəhmin Hacıyevin səhhəti avqustun 4-dən 5-nə keçən gecə qəflətən pisləşmiş, infarkt keçirmişdi. Yaşadığı Kiyev şəhərinin xəstəxanalarından birində 3 gün reanimasiyada saxlandıqdan sonra durumu yaxşılaşan və palataya köçürülən F.Hacıyevin səhhəti ötən gün yenidən pisləşib, həkimlər onun təcili əməliyyat olunmasını məsləhət biliblər.

## Deputat Fəzail Ağamalının köməkçisi qəzada öldü




**Avqustun 11-də səhər saatlarında Ələt-Astara avtomobil yolunun Xıdırlı yolötürücüsü yaxınlığında ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Virtualaz.org saytının Şirvan bürosunun əldə etdiyi məlumata görə, Bakıya qarpız aparan "QAZel" markalı yük avtomaşını ilə "Opel" markalı avtomaşının toqquşması nəticəsində yük maşını idarəetməni itirərək aşıb. Nəticədə "Opel"in sərnişinlərindən biri aldığı xəsarətlərdən hadisə yerində dünyasını dəyişib. Biri uşaq, digəri qadın olmaqla iki sərnişin isə yaralı halda Ələt qəsəbəsindəki hospitala aparılıb.**

Morqdan verilən məlumata görə, qəzada ölən şəxs Salyan şəhər sakini, 1958-ci il təvəllüdlü Həsənov Həsənbala Həbib oğludur. H.Həsənov deputat Fəzail Ağamalının köməkçisidir.




# YAP-ın seçki siyahısı ləngiyir, bəs digər partiyalar?

### Müsavat "qarşıda xeyli zaman var" deyir, Ədalət Partiyasının siyahısı hazır deyil, Ümid isə yeni blok hazırlığındadır...

**Yeni parlament seçkilərinə iki aydan bir qədər çox müddət qalsa da, YAP yekun siyahısını hələ də açıqlamayıb. Bu ləngiməni bəzi hakim partiya yetkililəri müxalifətin seçki siyahısını açıqlamasını gözləməklə izah edir. Bu variant qismən reallığı əks etdirir; çünki müxalifət nə qədər zəifləsə də, onun ayrı-ayrı liderləri hələ də YAP namizədləri üçün istənilən dairədə rəqabət yaratmaq gücündədir.**

Bəs Azərbaycandakı siyasi partiyalar parlament seçkisində iştirak etmək üçün deputatlığa namizəd siyahılarını müəyyənləşdiribmi?

Hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, deputat Siyavuş Novruzov modern.az-a bildirib ki, zamanı gələndə bu barədə geniş məlumat veriləcək.

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının müavini Fuad Qəhrəmanlı:** "Seçkidə iştirakla bağlı yekun qərar verilmədiyinə görə belə bir siyahı məsələsi gündəmdə deyil".

Müsavat Partiyasında isə seçki siyahısı hələ hazır deyil. Bu barədə danışan **Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bildirib ki, hələ qarşıda xeyli müddət var. Partiya funksioneri bu müddət ərzində hər şeyin hazır olacağını deyib.

**Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan** isə seçki siyahıları ilə bağlı Modern.az-a açıqlamasında bildirib: "Seçkiyə gedəcəyimiz təqdirdə siyahı açıqlanacaq. Hələ ki seçkiyə gedib-getməyəcəyimiz bəlli deyil, ona görə də seçki siyahılarını müzakirə etmək niyyətində deyiləm".

**Ədalət Partiyasının sədr müavini Mütəllim Rəhimli**nin isə cavabı belə olub:

"Ədalət Partiyasında seçki siyahısı hələ hazır deyil. Çünki bir sıra prosedur həyata keçirilməlidir. İlkin olaraq partiya seçkilərdə iştirakla bağlı qərar verməlidir, amma hələlik belə bir rəsmi qərarımız yoxdur.

Partiyanın səlahiyyəti Ali Məclisin ixtiyarındadır. Düşünürük ki, avqustun sonlarında Ali Məclisin iclasını çağıraq və partiyanın seçkilərə münasibətini rəsmi olaraq bəyan edək. Amma bununla belə seçkilərdə iştirak etmək istəyində olan partiya üzvləri Mərkəzi Aparata müraciət edirlər və onların sayı 20-ə yaxındır.

Onu da qeyd edək ki, indi proporsional sistem olmadığından burada partiyanın siyahı təqdim etməsi də düzgün səslənmir, çünki namizədlər majoritar qaydada seçkilərə qoşulurlar. Burada yalnız ayrı-ayrı fərdlərin seçkiyə qoşulmasından söhbət gedə bilər. Amma bununla belə, Ədalət Partiyası ayın sonunda onun sıralarından nə qədər namizədin parlament seçkilərində iştirak edəcəyini dəqiqləşdirəcək".

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu** isə bildirib ki, artıq partiyanın seçki siyahısının hazırdır. "Biz partiyadan nə qədər üzvün seçkidə iştirak edəcəyi demək olar ki, müəyyənləşib".

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) baş katibi Arzuxan Əlizadə**nin sözlərinə görə seçki siyahısı demək olar ki, hazırdır."Amma bəzi dairələr üzrə namizədlər hələ tam dəqiqləşdirilməyib. Siyasi Şuranın iclasında bu məsələ müzakirə edilib, potensial namizədlər də iclasa dəvət olunub. Bir daha seçki məsələləri, kimlərin hansı dairələrdə daha şanslı olması məsələləri müzakirə olunub. Namizədlərin dairələr üzrə 90 faizi artıq müəyyən edilib, qalanları da müəyyən edildikdən sonra bu barədə mətbuata açıqlanma veriləcək".

Siyahısını açıqlayan Ümid Partiyası isə qarşıdan gələn parlament seçkilərində iştirakla bağlı bir sıra partiyalarla seçki bloku yaradılması istiqamətində danışıqlar aparır. Bunu moderator.az-a açıqlamasında **Ümid Partiyasının sədri İqbal Ağazadə** deyib. Onun sözlərinə görə, hazırda partiyada seçkilərə ciddi hazırlıq işləri gedir. "Artıq dairələr üzrə namziədlər müəyyənləşdilib və bu istiqamətdə seçicilərlə iş gedir. Bundan əlavə olaraq bir siyasi partiya kimi üzərimizə düşən vəzifələrdən bir də seçki ərəfəsində əməkdaşlıq və bloklaşma ilə bağlı olan təklifləri dəyərləndiməklə məşğuluq", - deyə İ.Ağazadə bildirdi.

"Qarabağ" bloku daxilində vahid namizəd məsələsində yarana biləcək problem məsləsinə gəldikdə isə İ.Ağazadə bildirdi ki, burada elə bir problem yoxdur və biz vahid namizəd məsələsində ümumi razılığa gələ biləcəyik".

Seçki ərəfəsində digər qüvvələrlə əməkdaşlıq etmək məsələsinə gəldikdə isə partiya sədri bildirib ki, hazırda ölkədəki müxtəlif siyasi partiya və qüvvələrlə bloklaşma və əməkdaşlıq istiqamətində danışıqlar gedir. "Ancaq bu hələ danışıqlar səviyyəsində olduğundan və əməkdaşlığın, bloklaşmanın konturları dəqiq bəlli olmadığında ictimaiyyətə veriləcək bir məlumat yoxdur", - deyən İ.Ağazdə əlavə edib ki, danışıqların gedişində asılı olaraq ola bilsin yeni seçki bloku yaransın.

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# Bu gün prokuror Xədicə İsmayıla iş istəyə bilər

## Şahidlər istintaqdakı ifadələrindən imtina etdilər

**Avqustun 11-də Ağır Cinayətlər Məhkəməsində araşdırmaçı jurnalist Xədicə İsmayılın məhkəmə prosesi davam etdirildi. Əvvəllər olduğu kimi, yenə də proses yarımqapalı keçirilirdi. Xarici səfirliklərin nümayəndələri və jurnalistin qohumlarından başqa heç kəs məhkəmə zalına daxil ola bilmədi. Mətbuat orqanlarından isə yalnız 3-4 jurnalistin prosesdə iştirakına şərait yaradıldı.**



**11:00-da məhkəmə başlayan kimi fasilə yarandı. Buna səbəb müdafiə tərəfinin vəkillərinin prosesə gəlməməsi oldu.**

Fasilə zamanı X.İsmayılın anası Elmira İsmayılova jurnalistlərə açıqlama verdi: "Zala daxil olan kimi fasilə elan olundu. Çıxmağa məcbur olduq. Qızımı doyunca görə bilmədim. Vəziyyəti yaxşı görünürdü. Vəkilin gəlməməsinə görə fasilə oldu. Zalda tanımadığım çoxlu sayda adam var idi. Onların kimliyini soruşdum. Nəvəm dedi ki, onların adamlarıdır. Xədicə məhkəməyə dedi ki, agentləri yenə də doldurmusunuz zala. Öz adamlarının zala daxil ola bilməmələrindən qızım çox narahatdır. Bu məhkəmə deyil, bir teatrdır. Pis artist və pis oyunçulardan ibarətdir. Mən bunu məhkəmə adlandırmıram".

Fasilə gözlənildiyindən uzun çəkdi. Günün ikinci yarısında vəkil Cavad Cavadovun prosesə gəldi. İclas Xədicə İsmayılın Bakı Şəhər Prokurorluğundan MTN-ə ünvanlanmış məktubun surətini istəməsi vəsatəti ilə davam etdi. Lakin vəsatət təmin olunmadı. Proses şahidlərin ifadələri ilə davam etdirildi.

İlk olaraq Tural Mustafayevin keçmiş qayınanası Fərqanə Rəsulova ifadə verdi. O, ifadəsində göstərdi ki, Turalla Xədicə arasında hər hansı münasibətdən xəbəri olmayıb: "Xədicəni tanımıram. Adını belə eşitməmişəm. Turalla olan münasibətlərini bilmirəm".

**Prokurorun qızının ailəsinin dağılmasında kimi günahkar görməsi ilə bağlı sualına şahid belə cavab verdi:** "Qızım mənə deyirdi ki, ailəm dağılmaq üzrədir. Tural onu boşanmağa vadar edirmiş. Onun həyatında Rövşənə adlı qadın olub. Turalın qızımla ayrılmasına səbəb Rövşənə olub".

Şahidin istintaqa verdiyi ifadəsi elan olundu. Lakin o, həmin ifadəni təsdiq etmədi.

**Daha sonra Rövşənə Rəhimlinin anası Zemfira Əliyeva ifadə verdi.** O, T.Mustafayevin içkiyə meylli olduğunu, sərxoş olarkən özünü idarə edə bilmədiyini, qızına dəfələrlə əl qaldırdığını, hətta bir dəfə kiraya yaşadığı evdə özünü asmaq üçün ilgək düzəldərək şəklini Rövşənəyə göndərdiyini söylədi: "Tural içkiyə meylli adam olub. Bir gün xəbər verdi ki, intihar edirəm. Qaça-qaça getdik, gördük stolun üstündə araq, yemək, özü də eyvanda oturub. Dedim ki, ayıb deyil, bizi bu cür qorxudursan?

Bu adam axır vaxtlar əlində zəhər küçələri gəzirdi. Valideynlərinə zəng vurdum, dedim gəlin yiyə durun, heç kim yaxın durmadı. Turalın qeyri-adekvatlığı qızımın nişanı qaytarmasına səbəb oldu".







**Ardınca AzadlıqRadiosunun əməkdaşı Esmira Cavadova dindirildi.** O, radiodakı fəaliyyəti ilə bağlı danışdı: "Mən 2010-cu ildən radioda işləməyə başlamışam. Xidməti müqaviləni radionun Azərbaycan nümayəndəliyinin kadrlar şöbəsinin müdiri ilə bağlamışam. İstintaqda müqaviləni Xədicə İsmayılla bağlamağım barədə yazılanlar doğru deyil. Mən istintaqda belə ifadə verməmişəm. Bizi qeyri-iş günü, ekstremal vəziyyətdə aparıb dindiriblər. Səhər saat 7-də 23-cü polis bölməsinin əməkdaşları həyətimizə tökülüşmüşdülər".

**Sonra əvvəllər AzadlıqRadiosunun əməkdaşı olmuş Fərəh Əliyeva dindirildi.** O bildirdi ki, radioda "İnternews"un layihələri əsasında fəaliyyət göstərib və müqaviləni də bu qurumla bağlayıb.

Məhkəmədə sonuncu dindirilən şahid Meydan TV-nin əməkdaşı Cavid Abdullayev oldu. Onun ifadəsi ilə istintaqda dedikləri arasında təzad yarandı. Şahid istintaqdakı ifadəsindən imtina edərək, məhkəmədə söylədiklərinin doğru olduğunu qeyd etdi: "Bir ay Turalla bir yerdə qalmışıq. Meydan TV-də də birlikdə çalışmışıq. O, Xədicə İsmayıl ilə münasibətləri barədə mənə heç nə deməyib. Onun intihar həddinə çatdırılması ilə bağlı onu deyə bilərəm ki, buna səbəb Rövşənə Rəhimli ilə münasibətlərinin pisləşməsi nəticəsində onda psixoloji problemlərin yaranması idi. İstintaq materiallarında adımdan yazılanlar mənə aid deyil. Orada mənə dedilər ki, al bunu imzala, mən də imzaladım. Elə ittiham xarakterli ifadə verməmişəm".

**Cavid Abdullayevin istintaqdakı ifadəsi elan olundu.**

Şahidlərin ifadələri bitdikdən sonra təqsirləndirilən şəxs çıxış etdi. O, məhkəmə zamanı havasız yerdə saxlanılmasına etirazını bildirdi: "Mən həbsdə olsam da, gün ərzində iki saat hava almaq hüququm var. Amma bu gün saatlarla məhkəmə binasının pis qoxu verən zirzəmisində saxlanılmışam. Həftədə iki dəfə telefon zəngindən istifadə etmək hüququm var. Ancaq buradan təcridxanaya aparılarkən istifadə edə bilmirəm. Başa düşürəm ki, iş vaxtı başa çatdığından telefon işlərinə baxan təcridxana əməkdaşı gedir. Təcridxanaya qayıtdığım vaxt gec olur. Ailəmlə görüşə bilmirəm. Həftənin şənbə və bazar günləri qadınlara görüş verilmir. Hər gün məhkəmə olanda ailəmlə görüşə bilmirəm. Xahiş edirəm ki, hər günə proses salmayın, məhkəməni də yarım gün keçirin. Heç olmasa, iki saat hava alım".

X.İsmayılın çıxışından sonra hakim prosesin 12 avqust saat 15:00-a təxirə salındığını elan etdi. Növbəti məhkəmədə prokuror təqsirləndirilən şəxsə iş istəyə bilər.

**Məhkəmədən sonra X.İsmayılın anası Elmira Süleymanova mətbuata bir daha açıqlama verdi:** "Şahidlər verdikləri ifadələrdən imtina etdilər. Deyirlər ki, istintaqda özləri yazdılar, biz də qol çəkdik. Vəkil soruşdu ki, hansı ifadəniz düzdür, onlar da məhkəmədə verdikləri ifadələri təsdiq etdilər. Suallara məhkəmədə mane olurdular. Nə qədər çalışsalar da, şahidlər özlərini itirmədilər. Xədicənin günahının olmadığını bildirdilər".

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**



# "Yaqlandın açıqlamasından görünür ki..."

## Prezidentin köməkçisindən jurnalistin ölümü ilə bağlı növbəti açıqlama

**Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın qətlə yetirilən jurnalist Rasim Əliyevin vəfatı ilə bağlı açıqlamasına münasibət bildirib.**

Azertac-a xəbər verir ki, o qeyd edib ki, Prezident İlham Əliyev jurnalistin ölümündən ciddi narahatlığını ifadə edib və bunu ölkədə söz və məlumat azadlığına, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətinə təhlükə və təhdid kimi qiymətləndirib:

"Dövlət başçısı aidiyyəti orqanlara cinayət faktının hərtərəfli araşdırılması, günahkarların tapılması və məsuliyyətə cəlb edilməsi ilə bağlı tapşırıqlar verib və məsələni şəxsi nəzarətinə götürüb. Cənab prezident bəyan edib ki, bundan sonra da söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin müstəqilliyinin və xüsusilə jurnalist fəaliyyətinin təhlükəsizliyinin təmin olunması məsələlərini nəzarətdə saxlayacaqdır".

**Əli Həsənovun sözlərində görə, respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi jurnalistin ölümünün səbəbinin araşdırılması və günahkarların qısa zamanda müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi ilə bağlı operativ tədbirlər həyata keçirmiş, məsələ barədə ictimaiyyətə dolğun məlumat verilib:**

"Lakin cənab Yaqlandın açıqlamasından görünür ki, o, baş vermiş hadisənin mahiyyəti, Azərbaycan hakimiyyətinin bu hadisəyə münasibəti, görülmüş işlər və hətta söhbətin kimdən getdiyi barədə bir o qədər də geniş məlumata malik deyildir. Düşünürəm ki, Azərbaycan hakimiyyətinin məsələ ilə bağlı gördüyü işlərlə tanış olduqdan sonra T.Yaqlandın bu tipli açıqlamalarına ehtiyac qalmayacaqdır.

O ki qaldı jurnalistlərə qarşı zorakılıq, onların ölümü ilə bağlı məsələlərə, qeyd etməliyəm və təcrübə də göstərir ki, dünyanın heç bir ölkəsi bu tipli cinayətlərdən sığortalanmayıb. Əsas odur ki, hakimiyyət hadisəni düzgün qiymətləndirsin, məsələ obyektiv araşdırılsın, təqsirkarlar barədə qanuna uyğun şəkildə ölçü götürülsün, habelə bu kimi halların gələcəkdə təkrarlanmaması üçün ciddi iradə nümayiş etdirilsin və zəruri tədbirlər görülsün. Azərbaycan hakimiyyəti bütün bunları etmişdir, ictimaiyyət də həyata keçirilən tədbirləri anlaşıqlı qarşılayır və dəstəkləyir.

Ümumiyyətlə, Azərbaycanda hakimiyyətlə vətəndaş cəmiyyəti institutları - qeyri-hökumət təşkilatları, siyasi partiyalar, kütləvi informasiya vasitələri, dini və milli azlıqları təmsil edən qurumlar arasında çox yaxşı dialoq mövcuddur. Hakimiyyət və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri arasında müntəzəm qaydada görüşlər keçirilməsi, cəmiyyəti narahat edən məsələlərin müzakirə olunması və problemlərin həlli üçün birgə səy göstərilməsi bunu açıq şəkildə təsdiq edir.

Azərbaycan hakimiyyəti bu günə kimi vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi məqsədilə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş və bundan sonra da bu istiqamətdə öz səylərini davam etdirmək əzmindədir".



# Doqquz yalan qurşağı

Zamin HACI
zaminhaci@gmail.com

"Otaqda gəzişən Celsomino üç burnu olan adamın portreti önündə dayandı. Bu portretə Axsaq Pişik də heyrətlənmişdi.
Bu kimdir? - Celsomino soruşdu.
Çox tanınmış saray əyanıdır.
Nə xoşbəxtdir! Üç burunla o, yəqin dünyanın bütün qoxularını üç dəfə güclü hiss edir."

**(Canni Rodari, "Celsomino yalançılar ölkəsində")**

**Yapistlərin jurnalist Xədicə İsmayıla qarşı irəli sürdüyü ittihamlar yağışdan sonrakı göbələklər kimi prokurorluğun bağçasında bitir. Kefləri nə istəsə, aparatdan hansı "zakaz" gəlsə onu da yazırlar. Örnək üçün, bir ittihama görə Xədicə xanım "Beynəlxalq Bank"dan ABŞ radiosunun pullarını çıxarıb yeyibdir. Buna görə ilk növbədə ABŞ narahat olmalıdır, amma ittihamın yalan olduğunu Azadlıq Radiosu çoxdan elan edib.**

Amma bununla işimiz yoxdur. Ən gülməlisi odur ki, həmin bankda Xədicə İsmayılın adına ümumiyyətlə hesab olmayıb. Bir adam bankdan adına olmayan hesabdan necə pul çıxara bilər? Məntiqlə, Xədicə xanım ya ünlü xakerdir, biz bilməmişik, ya da Hacı İbrahim kimi adamdır. Hardasa "Azadlıq adaları" projesi işləyirmiş. Orda jurnalistlərə ev verəcəkmiş. Nə bilsən... Hakimiyyətin milli mentalitetimizə hörməti o qədər çoxdur ki, dünyada baş verən və vermək ehtimalı olan bütün kriminal olayları Leyla Yunus və Xədicə İsmayıl kimi iki qadının zərif çiyinlərinə yükləmişdir. O cümlədən, avtobusda qadına yer verməsi ilə öyünən bəzi dılğır azərbaycanlılar da bu iki qadına qarşı repressiyalar mövzusundan söz düşəndə gölməçəsinə daş atılmış qurbağa balası kimi susurlar.

Bayaq hörmətli İbrahim müəllimin adını çəkdim, bank sektoruna yaxın bir şəxsdən aldığım xəbərə görə bu adamın öz avantürist, gülməli ada projesinə Beynəlxalq Bankdan aldığı kredit, sən demə, 1 milyard 680 milyon dollar imiş! Bəlkə bu fantastik məbləğə görə İbrahim müəllimi tez-tez "bankotdel"in divanına çəkirlər? Hər halda, bir avantüristin bu qədər dövlət pulunu ələ keçirmək imkanlarının olması Azərbaycanda dövlətçiliyin, iqtisadi sistemin nə cür bərbad durumda olduğunu da göstərir. Elə bil bank yox, divar dibi siçan yuvası ilə dolu taxıl anbarı imiş, hərə bir yandan sökürmüş. Üstəlik, bütün yapizm dövründə maliyyə fırıldağında qanunsuz suçlanan müxaliflətçilərin "oğurladığı" məbləğ heç bunun yüzdə biri qədər olmaz. Bəs bunlar öz adlarını başqalarına niyə qoyurdular?

Ancaq bizim haqqımızda xaricdə də maraqlı təsəvvürlər yaranmışdır. Türkiyənin "Onedio" adlı əyləncəli portalı Anadolu türklərinə "Azərbaycana getməyiniz üçün 20 səbəb" adlı anekdotvari bir yazı dərc edib. Oxuyursan, düşünürsən görəsən bunlar hansı Azərbaycandan bəhs edirlər. Yazının bəzi "səbəblərinə" hətta AzTV kimi dahi gop maşını da həsəd apardı. Örnək üçün, yazıblar ki, Azərbaycan sakit istirahət yeridir, təhsil səviyyəsi yüksəkdir, əhalinin gəlirləri isə bərabərdir! Guya bizdə doqquz iqlim qurşağı varmış. Guya bizdə varlı və kasıb təbəqələri yoxmuş. Hamı orta sinif imiş. Məncə, bunu "AzTV İbrahim"ə göstərməyin - yazıqdır, heyrətdən düzgün adam olar, acından ölər.

Yaxud biz Xəzər üzünə hasarlardan həsrətik, bunlar isə yazıblar: "Göl və dəniz adı dartışılan Xəzəri, dünyada ən kiçik suiti olan Xəzər suitisini görəcəksiniz". Əlbəttə, biz özümüz tez-tez Xəzər suitisini görürük. Bulvarda hürürlər. Zarafat edirəm. Turistlər istəsələr Xəzərin fırtınalı vaxtlarında bəzi yerlərdə sahilə atılan suiti cəmdəkləri göstərmək olar. Şəxsən mən Xəzər suitisinin ancaq ölüsünü görmüşəm. Qismətimiz budur, neyləyək.

Yazının "Keyfiyyətli musiqi deyiləndə ağıla gələn ilk ölkələrdən biri Azərbaycandır" cümləsi isə böyük ehtimalla Üzeyirlə Manafı nəzərdə tutur.

**Bu yaxında bir amerikalı alim Naxçıvana gəlmişdi, oradakı vəziyyəti təriflıyən açıqlama vermişdi. Xəbərim yox idi, oxuculardan biri mənə yazmışdı. Qeyd eləmişdi ki, sən canın bunun soyadına diqqət elə. Amerikalı alimin soyadı... Gopçu idi.**

# Ərdoğanı devirmək istəyən prokuror Ermənistana qaçdı

## Onlarla türk generalını "terrorçu" kimi həbsxanaya dolduran Zəkəriyyə Öz və Cəlal Qaranın işğalçı ölkədə gizləndiyi deyilir...



Zəkəriyyə Öz

**Türkiyə gündəmini PKK və İŞİD məsələsi ilə bağlı son günlər daha bir mövzu zəbt edib - haqqında cinayət işi qaldırılan prokurorlar Zəkəriyyə Öz və Cəlal Qaranın ölkəni gizlicə tərk eləməsi və harada olması. Fətullah Gülən hərəkatını dəstəkləməkdə, qeyri-qanuni quldur dəstələrinin təşkili və hökuməti devirməyə yönəlik cəhdlərdə suçlanan prokurorların az sonra Ermənistanda gizləndiyi haqda məlumatlar yayılıb.**

**Bu haqda Türkiyənin Artvin vilayətinin valisi Kamal Cirit bildirib.**

Valinin sözlərinə görə, Öz və Qara sraağagün Gürcüstan ərazisindən Ermənistana keçib və hazırda da orada gizlənirlər. Zəkəriyyə Öz yerli vaxtla saat 03:46-da, Celal Kara isə 04:19-da Sarp sərhəd-keçid məntəqəsindən Gürcüstanın Batumi şəhərinə keçib. Türkiyə tərəfi Gürcüstan polisini prokurorların bu ölkəyə qaçdığı haqda məlumatlandırıb. Bundan sonra bəlli olub ki, prokurorlar Gürcüstandan Ermənistana adlayıblar.

**Xatırladaq ki, Zəkəriyyə Öz bir vaxtlar baş nazir Rəcəb Tayyib Ərdoğan tərəfindən silahlı qüvvələrin yüksək rütbəli mənsublarını kütləvi həbs edərək "Ergenekon terrorçusu" adı altında həbsxanaya doldurmağa sanksiya verdiyinə görə zirehli avtomobillə mükafatlandırılmışdı.** Virtualaz.org xəbər verir ki, avqustun 10-da prokurorluq Zəkəriyyə Özün, habelə qalmaqallı "Ergenekon" işinin digər prokuroru Cəlal Karanın barəsində mütəşəkkil cinayətkar qruplaşma formalaşdırmaq və hökuməti devirməyə cəhd göstərmək ittihamı ilə həbs sanksiyası verib. Lakin məlum olub ki, sanksiyanın çıxarılmasına az qalmış onlar Gürcüstana qaçıblar.

Zəkəriyyə Öz yaxın keçmişə qədər Türkiyənin siyasi sistemində hakim mövqeyə malik olan Fətullah Gülənin (Gülən camaatının lideri) ən sadiq əsgərlərindən idi. "Ergenekon" adlı mifik terror təşkilatı barədə cinayət işi qaldıran, bu cinayət işi çərçivəsində əvvəlcə Türkiyə Silahlı Qüvvələrinin istefada olan generallarını, digər yüksək rütbəli zabitlərini, Atatürkçü ziyalıları, jurnalistləri, daha sonra həbsləri Türkiyə ordusunun xidmət başında olan komandanları barədə sanksiyalar çıxarmaqla davam etdirən məhz Öz olub.

**Zəkəriyyə Öz ordu generalları, əksər qoşun növlərinin komandanları, o cümlədən silahlı qüvvələrin Baş qərargah rəisi İlkər Başbuğ barəsində "terror təşkilatı qurmaq və ona başçılıq etmək" kimi ağır ittihamla cinayət işi qaldırıb onları bir-birinin ardınca Silivri həbsxanasına göndərirdi.** Silivri həbsxanası Özün həbs etdirdiyi generallarla, ziyalı və jurnalistlərlə doldurulmuşdu, onların əksəriyyətini ömürlük həbs cəzası gözləyirdi. Və "Ergenekon" məhbusları üzərində qurulan məhkəmə proseslərində onların əksəriyyətinin barəsində belə hökmlər çıxarılmışdı.

Zəkəriyyə Özün Fətullah Gülənin Türkiyədə təriqət dövləti qurmaq planlarına mane ola biləcək hər kəsi "terrorçu" adı altında həbsxanalara doldurması 2013-cü ilə - Ərdoğanla Gülən arasında münasibətlərin pozulmasınadək davam etdi. 2013-cü ilin dekabrında Gülənin ordusu - Türkiyənin polis və ədliyyə sistemində kök salmış fətullahçılar bu dəfə Ərdoğanın özünü devirmək üçün hərəkətə keçdilər. Onun hökumətinin nazirlərinin korrupsiya əməlləri ortaya çıxdı, ilk həbslər aparıldı və hətta Ərdoğanın oğlu Bilal barəsində həbs sanksiyası çıxarıldı. Ancaq Ərdoğan əks-hücuma keçərək Türkiyənin polis və ədliyyə sistemində fətullahçıları kütləvi şəkildə işdən azad etməyə başladı. Bir vaxtlar Ərdoğanın hakimiyyət müttəfiqi olan Fətullah Gülənin şəbəkəsi "paralel dövlət" adı altında zəiflədildi.

Ərdoğanla Gülən arasındakı qarşıdurma "Ergenekon" məhbusları üçün də həbsxana qapılarını açdı. Onlara qarşı ittihamların saxta olduğu etiraf edildi. İstanbul Cümhuriyyət prokuroru işləyən Zəkəriyyə Özü uçqar rayonlardan birinə prokuror təyin etdilər, səlahiyyətlərini əlindən aldılar. Öz isə yeni iş yerinə getmədi, Ərdoğanın hakimiyyətinə qarşı ara-sıra çıxışlar etdi.

İndi onun özü bir vaxtlar Türkiyə ordusunu ciddi şəkildə zəiflədən həbs əməliyyatları zamanı istifadə edilmiş ittihamla - hökuməti devirməyə cəhd və mütəşəkkil qruplaşma yaratmaq ittihamları ilə üzləşib. Və prokuror Öz həbs sanksiyası barədə əvvəlcədən məlumat alaraq Ermənistana qaçıb. Niyə məhz Ermənistana qaçıb, bu haqda hələ ətraflı məlumat yoxdur.

Ancaq bir vaxtlar NATO-nun ikinci ən güclü ordusu hesab edilən türk ordusunun komandanlarını "terrorçu" kimi həbs edən birinin Ermənistana qaçması olduqca ibrətamiz görünür...

***

**Əlavə edək ki, Ermənistan tərəfi qaçış faktı hələ təsdiqləməyib. O da maraqlıdır ki, əgər həqiqətən belə bir hal varsa, işğalçı ölkə prokurorları Türkiyəyə təhvil verərmi - tutaq ki, özü haqda sivil dövlət imici yaratmaq üçün və ya Ərdoğan iqtidarından nəsə qoparmaq qarşılığında?**

**❑ Hazırladı: Siyasət şöbəsi**

# ABŞ səfiri Ağ Evin Azərbaycana daha çox yardım ayıracağını gözləyir

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevlə görüşüb. APA-nın səfirliyin rəsmi "twitter" hesabına istinadən verdiyi məlumata görə, görüşdə ABŞ-ın Azərbaycanda yardım proqramları müzakirə edilib. "ABŞ Azərbaycana müxtəlif sahələr üzrə 1,3 milyard dollar yardım ayırıb. Biz bunun daha da artırılmasını gözləyirik", - deyə məlumatda qeyd olunur.**



Robert Sekuta

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015




# Ermənilərin saxladığı azərbaycanlı əsirlər barədə şok faktlar

## İşğalçı ölkə gələcəkdə buna görə cavab verəcəyindən narahatdır; **Əvəz Həsənov:** "Mümkündür ki, beynəlxalq təşkilatlardan gizli saxlanılan əsirlər olsun..."

**Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyi və digər dövlət qurumlarının əməkdaşlarının iştirakı ilə əsir və itkin düşmüş, girov götürülmüş şəxslərin işi üzrə keçirilən tədbirdə nə Ermənistanda, nə də Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində azərbaycanlı əsirlər və girovların olmadığı bəyan edilib. Azərbaycan tərəfi isə Ermənistan hakimiyyətinin dünyanı aldatmaq istədiyini, lakin özünü ifşa etdiyini bildirir.**

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Hikmət Hacıyev** bəyan edib ki, Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə azərbaycanlı əsir və girovların olmadığı barəsində absurd fikirlə çıxış edən rəsmi İrəvan əslində öz yalanlarını ifşa edir. Onun sözlərinə görə, 2014-cü ilin sonunda prezidentlərin Paris görüşündə əsir və itkin düşmüş və girov götürülmüş şəxslərin işi üzrə münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə məlumat mübadiləsi və əməkdaşlıq təklif olunub: "Ermənistanın təcavüz və işğalı nəticəsində 4000-dən artıq vətəndaşı itkin düşmüş hesab olunan Azərbaycan tərəfi humanist məram daşıyan bu təklifə hazırlığını ifadə edib. Şahidlərin ifadələri və əməliyyat-istintaq materialları əsasında Ermənistan tərəfindən əsir və girov götürülmüş azərbaycanlılar, o cümlədən mülki şəxslərin ən qəddar işgəncələrə məruz qoyulduqları, kütləvi şəkildə öldürüldükləri və kütləvi məzarlıqlarda basdırıldıqları faktları sənədləşdirilib. Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə azərbaycanlı əsir və girovların olmadığı barəsində absurd fikirlə çıxış edən rəsmi Yerevan əslində öz yalanlarını ifşa edir. Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov kimi qanunsuz saxlanmaları buna bir əyani sübutdur".

**Hikmət Hacıyev qeyd edib ki, "institusional yaddaş zəifliyi"ndən əziyyət çəkən Ermənistan tərəfinə 90-cı illərin sonu və 2000-ci illərin əvvəlində Ermənistanın özü tərəfindən də əsir və girovluqda olduğu təsdiq olunmuş və sonradan barələrində heç bir məlumat verilməmiş şəxsləri xatırlatmaq kifayətdir:** "Hesab edirik ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təzyiqi və Beynəlxalq Qızıl Xaç Komitəsinin təsiri nəticəsində girov götürülmüş soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev dərhal azad edilməli, Ermənistan ərazisində və işğal edilmiş ərazilərdə olan kütləvi məzarlıqlar açılmalı və insan qalıqları əsasında DNT məlumat bazası yaradılmalıdır. Nəticədə DNT analiz vasitəsilə itkin düşmüş şəxslərin taleləri müəyyənləşdirilə və 20 ildən artıq öz yaxınları haqqında xəbər gözləyən ailələrə məlumat verilə bilərdi. Ermənistan tərəfinin yürütdüyü qeyri-insani siyasətinin nəticəsidir ki, hər biri fərdi əsasda tədqiq edilməli olan bu faktlar araşdırıla bilinmir və öz beynəlxalq hüquqi məsuliyyətini dərk edən Ermənistan müxtəlif bəhanələrlə prosesə maneə olmağa çalışır".

**Bu əməllərə görə Ermənistanın hüquqi məsuliyyətinə aydınlıq gətirən H.Hacıyev bildirib ki, Ermənistanın hüquqi məsuliyyəti dedikdə burada bu cinayət əməllərini həyata keçirmiş və ya bu barədə əmrlər vermiş Ermənistanın hərbi və mülki vəzifəli şəxslərinin, həmçinin dövlət olaraq Ermənistanın məsuliyyəti vardır:** "İkrah doğuran hal odur ki, hələ də bu şəxslər Ermənistanın siyasi, hərbi idarəçiliyində və hüquq-mühafizə orqanlarında yüksək vəzifələr tuturlar. Bu əməlləri törətməklə, Ermənistan tərəfindən bir dövlət olaraq, Cenevrə konvensiyaları, mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt, soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında konvensiya, bütün növ irqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə konvensiya, işgəncələr əleyhinə konvensiya və silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında konvensiya və digər beynəlxalq sənədlər üzrə öz üzərinə götürdüyü öhdəliklər kobud şəkildə pozulub. Beynəlxalq hüquqi mexanizmlərdən istifadə edərək, Azərbaycan tərəfi bu əməlləri törətmiş Ermənistanın hərbi və mülki vəzifəli şəxsləri, eləcə də Ermənistanın dövlətinin məsuliyyətinin müəyyən olunması istiqamətində fəaliyyətini davam etdirir".

Ermənistan hökumətinin Ermənistan və işğal edilmiş Qarabağ bölgəsində azərbaycanlı əsir və girovların olmadığı barədə bəyanatının əsassız olduğunu indiyə qədər dəfələrlə yayılan informasiyalar, şahid ifadələri, xarici jurnalistlərin və turistlərin yazdıqları da sübuta yetirir. Ermənistan silahlı qüvvələrinin faşist metodları ilə apardıqları mübarizə nəticəsində Azərbaycanın 12 rayonu işğal olunub, 24 min soydaşımız öldürülüb, 4 min nəfər əsir götürülüb. Əsir düşənlərin böyük bir qismini uşaqlar, qocalar və qadınlar təşkil edir. İtkin düşmüş insanların ümumi sayı 4965 nəfərdir. Onların 320-si qadın, 69-u uşaqdır. Erməni əsirliyindən azad olmuş 3125 nəfərin 222-si qadın, 125-i uşaqdır.


Əvəz Həsənov

**Erməni vandalları tərəfindən yaradılmış altı qadın və uşaq əsir düşərgəsi haqqında çox ciddi mənbələrə əsaslanan informasiyalar var: Vardenis uşaq düşəgəsi (250 nəfər), Razdan uşaq düşərgəsi (180 nəfər), Xankəndi uşaq düşərgəsi (180 nəfər ), Getaşen qadın düşərgəsi (320 nəfər), Cermux qadın düşərgəsi (250 nəfər ), Kəlbəcər qadın düşərgəsi (150 nəfər).**

Ötən ilin mayında isə Ermənistanın işğal etdiyi Kəlbəcər rayonu ərazisində ermənilərin azərbaycanlı əsirləri saxladıqları və qızıl mədənində, digər ağır işlərdə qul kimi işlətdikləri barədə xəbər yayılmışdı. Xəbərdə deyilirdi ki, ermənilər Kəlbəcərdəki qızıl yataqları və mədən işlərində azərbaycanlı əsirləri işlətməklə yanaşı, həm də olmazın işgəncə verirlər. Ermənilərin azərbaycanlı əsirlərlə Kəlbəcərdəki həmin düşərgədə məşhur "Apokalipsis" filmindəki kimi dəhşətli işgəncə metodları ilə davrandıqları xəbərlərdə vurğulanırdı. Özü də bu barədə Azərbaycandan olan hansısa şəxs deyil, Kəlbəcərə turist kimi getmiş əcnəbilər öz ölkələrinə qayıtdıqdan sonra yazmışdılar.

İşğal altındakı torpaqlarımıza səfər etmiş qonşu ölkələrdən birinin vətəndaşları əsir azərbaycanlıların işlədildiyi məkanı aşkarlamışdılar. Daxil olan məlumatlara görə, həmin şəxslər təsadüfən Kəlbəcərdə olublar və Zod kəndi yaxınlığındakı əraziləri gəziblər. Həmin vaxt oradakı mədənlərdə işləyən, çəlimsiz, yarı ac, səfil gündə xeyli sayda adam görüblər. Tikanlı məftillərlə əhatələnmiş ərazidə işgəncələrə məruz qalan işləyənlərin kimliyini soruşduqda isə heyrətə gəliblər. Onlara bələdçilik edən erməni bildirib ki, Zod qızıl yataqları və digər mədənlərdə çalışanlar azərbaycanlı əsirlərdir, əzaba, ağır şərtlər altında işləməyə dözməyib ölən əsirlərin izini isə elə həmin ərazidəcə itirirlər.

Xatırladaq ki, hələ bir müddət əvvəl də Gürcüstana turist kimi gəlmiş bir neçə erməni Ermənistanda və Qarabağda xeyli sayda azərbaycanlı əsirlərin olduğu barədə məlumat vermişdilər. Lakin onlar əsirlərin saxlanıldığı ünvanları konkret olaraq deməkdən çəkinmişdilər.

***

Dağlıq Qarabağ münaqişəsi zonasında İtkin Düşənlərin Axtarışı və Əsirlərin Azad Edilməsi üzrə Beynəlxalq İşçi Qrupun (2008-ci ilədək fəaliyyət göstərib) keçmiş həmsədri Əvəz Həsənov "Yeni Müsavat"a bildirdi ki, mümkündür ki, beynəlxalq təşkilatlardan gizli saxlanılan əsirlər olsun. Bunu heç kim birmənalı inkar edə bilməz. Çünki 4 min nəfər itkin siyahısında olanların müəyyən hissəsinin əsir düşdüyü və hələ də sağ qalanların olduğu ehtimalı var: "Ona görə də Azərbaycan hökuməti axtarış işlərini sistemli aparmalıdır. Axtarışı ya özü eləməlidir, ya beynəlxalq təşkilatlar vasitəsilə.

ATƏT-in Minsk Azərbaycan dövləti işğal olunmuş ərazilərdə və Ermənistan ərazisində gizli şəkildə əsirlərin saxlandığı barədə tez-tez yayılan informasiyaları da əsas götürərək axtarış aparmaq üçün beynəlxalq komissiya yaradılmasını tələb etmək hüququna malikdir. ATƏT-in Minsk Qrupunun həmsədrləri qarşısında da bu məsələni qaldırmaq lazımdır".

Əvəz Həsənovun sözlərinə görə, məhz Kəlbəcər rayonunda qızıl mədəni ərazisində azərbaycanlı əsirlərin saxlandığı və işlədildiyi barədə Azərbaycan hökumətinin əlində dəqiq informasiyalar, faktlar varsa, təcili hərəkətə keçmək lazımdır. Azərbaycan hökuməti Qırmızı Xaç Komitəsinin, ATƏT-in Minsk Qrupu həmsədrlərinin qarşısında məsələ qaldırılmalıdır.

**Tələb edilməlidir ki, əsir saxlanıldığı barədə haqqında söhbət gedən ərazilərdə beynəlxalq səviyyədə axtarış keçirilsin:** "Onu da deyim ki, bizim beynəlxalq İşçi Qrupun fəaliyyəti zamanı bizə gizlində əsirlərin saxlanıldığı barədə məlumatlar çox verilib. Qəribədir ki, illər öncə bizə çatdırılan məlumatlarda da ən çox Kəlbəcərdəki qızıl mədəninin adı çəkilirdi. Biz həmin əraziyə getmək istəsək də, ermənilər bizi heç vaxt oraya buraxmadılar. Ona görə də araşdırdığımız yerlər sırasında Kəlbəcərdəki qızıl mədəni ərazisi olmayıb. Azərbaycan dövləti Qızıl Xaç Komitəsinin və ATƏT-in Minsk Qrupundan tələb etməlidir ki, orada ciddi araşdırma aparılsın".

Ermənistanda və işğal olunmuş Qarabağ ərazilərində azərbaycanlı əsirlərin saxlandığını bir sıra beynəlxalq təşkilatlar da zaman-zaman qeyd ediblər. Məsələn, Avropa Şurası Parlament Assambleyası hələ 2001-ci ildə Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında yaydığı rəsmi sənədində bildirib ki, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əsasən, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 4959 nəfər Azərbaycanlı itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir, indi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfi bu faktı inkar edir.

Parlament Assamableyasının sənədinin 5-ci bəndində isə deyilir ki, Azərbaycan və Ermənistan Avropa Şurasının tamhüquqlu üzvüdür. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

Altıncı bənddə isə qeyd olunur ki, azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar. Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırıb.

Ermənistanın bəzi vətəndaşları da azərbaycanlı əsirlərin saxlandığı və onlara işgəncə verildiyini indiyədək bəyan ediblər. Ermənistan vətəndaşı, hakimiyyətin təzyiqlərindən ABŞ-a qaçmış keçmiş hərbçi Mesrop Martirosyanın bir neçə il öncə ABŞ məhkəməsinə verdiyi ifadələrdə qeyd olunur ki, Ermənistanda və işğal olunmuş ərazilərdə azərbaycanlı əsirlər saxlanır və onların sayı çoxdur, həmin əsirlərə işgəncə verildiyinin şahidi olub.

M.Martirosyan ifadələrində sözugedən qrup əsirlərə qarşı zorakı davranış, xüsusi ilə də erməni ordusunun nəzarətində olan, Dağlıq Qarabağdakı əsir düşərgələrində saxlanılan azərbaycanlı əsirlərə işgəncələr verilməsinə qarşı çıxışlar etdiyini, hərbi əsir düşərgələrində əzab verilmiş, bədənlərinin hissələri kəsilmiş əsirləri gördüyünü bildirib. Bununla yanaşı, o, azərbaycanlı əsirlərə qarşı vəhşiliklər barəsində fikirlərini əsaslandırmaq üçün bir sıra beynəlxalq təşkilatların məqalələri və press-relizlərini də misal çəkir.

**Göründüyü kimi, Ermənistan və işğal olunmuş Dağlıq Qarabağ ərazisində azərbaycanlı əsir və girovların olması, onlara qarşı törədilmiş cinayətlər barədə Azərbaycan tərəfinin bu illər ərzində müxtəlif beynəlxalq təşkilatlara təqdim etdiyi faktlar bir daha Ermənistan vətəndaşının dilindən etiraf olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015



# Nə gənclər bilir, nə də biz...

Hüseynbala SƏLİMOV

**Eşidəndə ki, bu ayın 12-si Beynəlxalq Gənclər günüdür, doğrusu, bir az tərəddüd etdim. Yox, heç kim məni əlamətdar günlərdə yazı yazmağa təhrik etmir. Sadəcə, elə olur ki, hansısa tarix adamı müəyyən fikirlərə yönəldir. Bir də görürsən ki, özünün də xəbərin olmadan mövzu gəldi...**

Amma gənclik məsələsi bir az qəliz məsələdir. Ona görə ki, hamı qəbul edib ki, bir az yaşlı adamlar gənclərdən razı olmur...

Amma biz bu qəlibdən bir az kənara çıxmaq istəyirik. İndi bizim düşərgədən olan adamların dediyi budur ki, gənclərdə romantizm çatışmır...

Bəs əvəzində nə var? Deyirlər ki, karyerizm güclüdür. Fəqət, biz bunu qüsur hesab etmirik, əksinə, belə bir keyfiyyət təqdir olunmağa layiqdir...

Sovetlərin vaxtında karyerizm təqdir olunmurdu, çünki bu fərdi stimul idi və daha çox fərdin yetişməsinə təkan verir və "xalqa təmənnasız xidmət etməyə" mane olurdu...

İndi sovetlər də gedib, onun qəlibləri və dəyərləri də... O ki qaldı qalan dünyaya, məsələn, Amerikada "özü-özünü yaradan insan", uğurlu insan obrazı çox təqdir olunur. Orada, əksinə, özünü hər hansı səbəbdən reallaşdıra bilməyən, özünü tapa bilməyən insan təqdir olunmur və belələrini sevmirlər...

Amma ciddi fərq var. Amerikada fırıldaqçıları da sevmirlər, ölkə hər qəpiyin haqq-hesabını çəkir...

Bunları niyə görə yazıram? Bizim böyük bir bəlamız, hətta dərdimiz var - bizdə heç kimi sərvətin, pulun mənşəyi maraqlandırmır, necə qazanalımasından asılı olmayaraq pulun varsa, deməli hörmət sahibisən, yox, əgər yoxdursa, onda özündən küs! Daha heç kimi maraqlandırmayacaq ki, sən hansı səbəbdən özünü reallaşdıra bilməmisən?..

Bir dəfə bir əsərdən oxumuşdum ki, insanın dəyəri nəyə malik olmasında deyil, nədən imtina etməsindədir. Amma bizim reallıq üçün bunlar mücərrəd bir söz yığınından başqa bir şey deyil...

Ona görə bizim gənclərə də, elə bizim özümüzə də çətindir. Bizim üçün ona görə çətindir ki, biz gəncləri necə yönəltməyin yolunu tapa bilmirik. Onları bu gerçəklikləri qəbul etməyə, reallıqlarla hesablaşmağa sövq etmək, yoxsa başqa ruhda tərbiyə etməyə çalışmaq?..

İnanın, bu, heç də asan məsələ deyil. Qorxursan ki, onlara "Realist ol!" desən bir müddət sonra rüşvətxor və fırıldaqçı yetişdirdiyinə peşman olacaqsan. Yox, əgər gerçəkliyin, reallığın fövqündə dayanmağı təlqin etsən, cəmiyyətə qətiyyən uyğunlaşa bilməyən bir adam , az qala "sosial şikəst" yetişdirəcəksən... Məgər bu, yaxşıdırmı? Bəli, deyirik ki, ən böyük biclik elə düzlük deməkdir. Amma heç birimiz düz olmaq və yaxınlarımızı da belə olmağa səsləyə bilmirik, çünki belə olmağın fəsadları bəzi cəmiyyətlərdə daha böyükdür...

Mən tez-tez F.Dostoyevskinin knyaz Mışkinini xatırlayıram. Reallıqları başa düşməyən, onları nəzərə almaq iqtidarında olmayan gəncin belə bir aqibət və belə bir, hətta deyərdik ki, müsibət yaşamaq problemi var...

Bəs onda neyləməli? Hamımız bu sualın cavabını bilmədən uşaq tərbiyə edir və ümid edirik ki, uşaqlar özləri çıxış yolunu tapacaqlar...

İnanın, bu, çox böyük dərddir... Axı uşaqlar düzgün yolu necə tapacaqlar? Bu gün onlar hər şeyin baş-ayaq olduğunu görürlər... Nəcib gənc belə situasiyada hər şeyi yerbəyer etməyə, sahman yaratmağa çalışacaq...

Amma o, bunu edə biləcəkmi? Bunu bacaracaqmı? Bu prosesdə onun özü kimə çevriləcək? Onu bütün bu prosesdə sonda dönüb hər şeyə qarşı müxalif olmaq aqibəti gözləmirmi?..

Hamı deyir ki, vicdanının səsinə qulaq as. Amma böyük əksəriyyət bunu deməklə bahəm vicdanının səsini azaltmağı da unutmur... Qalır kiçik bir qisim və necə deyərlər, amansız reallıqlar...

Böyük əksəriyyətin etirafı budur ki, hamı qəhrəman ola bilmir. Bəs qəhrəman olanlara necə, sizin saygınız varmı? Dərd də bundadır ki, bu, da yoxdur...

Bəli, demək olar ki, mən nəyisə edəndə kiməsə görə, ən başlıcası isə, qəhrəman olmağa görə etmirəm, sadəcə, vicdanımın səsinə qulaq asaraq nəsə edirəm...

**Amma axtarsan, bütün insanlara təmənnalıdır. İnsan ən azı özünün başa düşülməsini arzulayır. Əgər belələrinə bunu da vermək iqtidarında deyiliksə, o halda gəncləri qınamağa dəyərmi?..**



Şahmar Mövsümov

# Neft Fondunun ağır mövsümü: Çin yuanı da qiymətdən düşdü

## 2015-ci il iyulun 1-dən Çin yuanına 483 milyon investisiya qoyan DNF-nin artıq bu vəsaitlərinə də ciddi təhlükə yaranıb; Bu uğursuzluğa görə Şahmar Mövsümovun "vurula" biləcəyi barədə xəbərlər dolaşır

**Neftin qiyməti-nin son bir həftədə daha 1 dollar 50 sent ucuzlaşması büdcəsi neftdən asılı ölkələrə yeni böhran vəd edir. Son günlər Rusiyada rublun yenidən dəyərsizləşməsi prosesi sürətlənib. Dünya iqtisadiyyatının nəhənglərindən olan Çin də neftin qiymətinin düşməsi səbəbindən son 20 ildə ilk dəfə devalvasiyaya məcbur olub.**

Rusiya mətbuatının yazdığına görə, ölkə hakimiyyəti milli valyuta olan yuanın 1,9% devalvasiya olunması barədə qərar veriblər. Ekspertlər bu addımın əsas səbəbi kimi Çinin ixracatının 8,3% aşağı düşməsi göstərilir. İyul ayında ixracatı 8,3% azalan Çin həm də 40 milyard valyuta ehtiyatlarını itirib.

Həm Rusiya rublunun, həm də yuanın məzənnəsindəki ucuzlaşma, eləcə də qızılın qiymətindəki qeyr-sabitlik *(DNF qızılın ucuzlaşmasından 103,2 milyon dollar itirib)* Azərbaycana da təsirsiz ötüşməyəcək. Rusiya rublunun və Çin yuanın məzənnəsinin aşağı düşməsi Dövlət Neft Fondu(DNF) ehtiyatlarının gəlirlərini daha da azaldacaq. Qeyd edək ki, iyulun 1-nə olan məlumata görə, Fondun aktivləri əvvəlki ilə nisbətən 3,56 faiz azalaraq, 35,78 mlrd. manat olub.

DNF 2015-ci il iyulun 1-dən ümumi məbləği 3 milyard yuan ($483 milyon) olmaqla Çin yuanına investisiya qoyub ki, artıq bu vəsaitlərə də ciddi təhlükə yaranıb. Qeyd edək ki, bu yuana ilk investisiya qoyuluşudur ki, 3 milyard yuana qədər investisiya üçün Çin Mərkəzi Bankından (ÇMB) lisenziya 2014-cü ildə alınıb və ÇMB ilə müvafiq müqavilələr imzalanıb. DNF iyunun 12-də Çin Fond Bazarında indekslər yeddiillik maksimuma çatdıqdan sonra yuana sərmayə qoymağa başlayıb. Son ildə bazar 150 faiz artıb. Lakin bundan dərhal sonra Çin Fond Bazarında görünməmiş tənəzzül başlayıb və devalvasiya qaçılmaz olub.

Üstəlik, DNF-nun daşınmaz əmlakda da xeyli vəsait itirib. Fond 2012-ci ildə Moskvadan 133 milyon ABŞ dolları müqabilində Tverskaya 16 ünvanında yerləşən "Qalereya Aktyor" ofis-ticarət mərkəzi almışdı. Hazırda həmin obyekt dəyərinin üçdə birini itirib. Son qiymətləndirmələrə görə, ticarət mərkəzinin hazırda bazar dəyəri 5 milyard 687 milyon rus rubldur. Bu da təxminən 90 milyon dollar edir. Beləliklə, əmlak 3 ildə dəyərini 43 milyon dollar itirib. DNF-nin gəlirləri artıq o qədər kəsir yaranıb ki, xaricdə dövlət hesabına təhsil alan tələbələrin yemək xərcləri belə azaldılıb...

May ayında keçirdiyi mətbuat konfransında DNF-nin icraçı direktoru Şahmar Mövsümov az qala fevral ayında baş verən devalvasiyaya görə sevinmişdi. Ş.Mövsümov Mərkəzi Bankının manatın devalvasiyası ilə bağlı verdiyi qərarı doğru addım hesab edərək bunun nəticəsində Fondun büdcəsinin icrasında da pozitiv dəyişikliklər baş verdiyini qeyd etmişdi. "Biz büdcəyə 10 milyard manat transfert etmək üçün əgər 13 milyard dollar konvertasiya etməli idiksə, devalvasiyadan sonra biz cəmi 10 milyard dollar konvertasiya edəcəyik. Yəni fond 3 milyard dollar vəsaitə qənaət edə bildi" deyə, DNF rəhbəri bildirmişdi.

DNF-nin "xaricdən əmlak almaq siyasəti" hələ 2012-ci ilin sonlarında başlamışdı. Maraqlıdır ki, o zaman DNF-nin vəsaitinin hansı istiqamətlərdə investisiya qoyulması ilə bağlı prezidentin təsdiqlədiyi Əsasnamədə xaricdən əmlak alınması barədə bənd yox idi. Əsasnamədə DNF-nin vəsaiti hesabına xaricdən yalnız qızıl alınması nəzərdə tutulurdu. Yalnız 2014-cü ildə "Neft Fondu Haqqında" Qanuna edilən dəyişiklikdən sonra Fondun pullarının təkcə xarici valyutalarla deyil, həm də daşınmaz əmlakda saxlanılması qanuniləşdi. Hələ o zaman, neftin barelinin dünya bazarında 130-150 dollar olduğu vaxt müstəqil ekspertlər DNF-nin xaricdən əmlak almaq siyasətinin tənqid edirdilər. Hətta mediada bu siyasətin arxasında Ş.Mövsümovun özəl biznes maraqlarının durduğu da iddia olunurdu. İddia olunurdu ki, Fondun Avropa və Asiyanın mərkəzi şəhərlərində yerləşən ofis tipli daşınmaz əmlaka investisiya yatırmaq niyyətinin pərdəarxası məqamları var. "İcraçı direktorun milyonlar əldə etmək və həmin milyonları daşınmaz əmlaka yönəltmək kimi planları var. İcraçı direktor məsələdən siyasi hakimiyyətin xəbər tutacağından və onu cəzalandıracaqlarından ehtiyatlanır" deyə, məlumatlar da vurğulanırdı.

Ş.Mövsümovun "yuan və rubl", o cümlədən "xaricdə əmlak" siyasəti artıq ağır nəticələrini göstərməyə başlayıb.

Artıq mediada fondun icraçı direktorunun bu uğursuzluqların qurbanı kimi "vurula" biləcəyi barədə xəbərlər dolaşır. 2006-cı ildən-Samir Şərifovun maliyyə naziri təyinatından sonra DNF rəhbərlik edən Ş.Mövsümov son illərədək adı mediada ən az hallanan məmurlardan biri olub. Amma neftin qiymətinin düşməsi ilə başlanan proses indi Ş.Mövsümovun personasına və rəhbərlik etdiyi quruma diqqəti artırıb.



DNF-nin icraçı direktoru vəzifəsinə təyin olunanadək Mərkəzi Bankın Baş direktoru vəzifəsində işləyən Ş.Mövsümov S.Şərifov yaxın kadr sayılır.

DNF rəhbəri rubl və yuana, eləcədə xaricdən əmlak alınması məsələlərinə əlbəttə ki, təkbaşına qərar verə bilməz. Amma DNF dünyada baş verən prosesləri diqqətlə izləməli və sonra ən doğru qərarı verməyə məsuldur. Rusiyanın Qərbin sanksiyalarından sonra ayaqda qala bilməyəcəyi aydın idi və bu səbəbdən də indi Rusiyada su qiymətinə düşən əmlakları vaxtında satmaq gərəkirdi. Çin yuanına isə investisiya qoymağın riskli olduğunu anlamaq üçün də geniş analitik təfəkkür lazım deyildi. ABŞ əzəli rəqibi Çinin təklənmiş Rusiyaya nəfəs verməsini, onunla iqtisadi-hərbi əlaqələrini daha da genişləndirməsini cıcıqla qarşılayır və bu səbəbdən Pekinə qarşı ciddi siyasi-iqtisadi hücumlar hazırlayır. Fakt faktlığında qalır ki, Çin Rusiyanın yanında möhkəmlənən kimi "topdağıtmaz" iqtisadiyyatı laxladı, Çin Fond Bazarı indeksləri düşdü və nəhayət, yuanın da çöküşü başladı. Bu isə yalnız neftin qiymətinə bağlı olan proses deyil...

**Mümkündür ki, DNF-nin düşdüyü vəziyyətə görə Ş.Mövsümov cəzalandırılsın.**

❑ **"Yeni Müsavat"**

## "Evrobank" müflis elan olundu

**Azərbaycan Respublikası 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi lisenziyası ləğv olunan "Evrobank" ASC-nin müflis elan olunması ilə bağlı qərar qəbul edib.**

Məhkəmədən APA-ya verilən məlumata görə, Azərbaycan Mərkəzi Bankı "Evrobank"ın müflis elan edilməsi ilə bağlı avqustun 3-də məhkəməyə müraciət edib.

Məlumata əsasən, hakim Elçin Məmmədovun sədrliyi ilə avqustun 10-da iclas keçirilib.

Azərbaycan Respublikası 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 10 avqust 2015-ci il tarixli 2-1(81)-3855/2015 saylı qərarı ilə "Evrobank" müflis elan edilib.

## "Xəzərdə öldürücü virus" xəbərinə reaksiya gəldi

### Səhiyyə Nazirliyi rəsmisi: "Suda insan ölümünə səbəb olacaq infeksiya yoxdur"

**Bunu "Trend"ə Azərbaycan Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva Bakıda 2 yaşlı körpənin dənizdə çimdikdən sonra ölməsi barədə yayılan məlumatlara münasibət bildirərkən deyib.**

Dənizdə çimdikdən sonra hər hansı bir uşağın xəstələnərək ölməsi barədə məlumatların olmadığını deyən A.Əliyeva bildirib ki, dəniz suyunda uşağın ölümünə səbəb olacaq infeksiya yoxdur: "Əgər bu səbəbdən belə bir hadisə olsaydı, bizim bundan mütləq məlumatımız olardı. Ola bilər ki, bu, ara sözüdür. Ancaq hər hansı məsələ tam aydınlaşdırılmalı, ondan sonra bunun səbəbi müəyyənləşdirilməlidir. O da nəzərə alınmalıdır ki, dənizin bütün zonalarında çirklənmə yoxdur".

**Mərkəzin şöbə müdiri Ziyəddin Kazımov** isə Trend-ə bildirib ki, uşağın ölümünün dəniz suyunun təsirindən baş verməsini aydınlaşdırmaq üçün ilk növbədə uşağın dənizin hansı hissəsində çimdiyi konkret ünvanla açıqlanmalıdır.

Z.Kazımov deyib ki, Sumqayıt çimərliyində, Bakının Səbail rayonunun Şıx və Qaradağ rayonunun Sahil qəsəbəsinin çimərlik ərazilərində bu il də mikrobioloji baxımdan çirklənmə qeydə alınıb. Bu çimərliklərdə vətəndaşların çimməsi qadağan edilib. Laborator analizlərinin nəticələrinə görə, qalan ərazilər yay mövsümü ilə əlaqədar çimərlik kimi istifadəyə yararlıdır: "Ancaq valideyn konkret olaraq deməlidir ki, uşaq hansı ərazidə çimib. Bu məsələ araşdırılmalıdır. Dəniz suyunda elə bir virus yoxdur ki, o, dəniz suyundan uşağa keçsin və uşaq da rəhmətə getsin".

Z.Kazımovun sözlərinə görə, hətta çimrəlik hesab olunmayan ərazilərdəki dənuz suyunda belə insanın ölümünə səbəb ola biləcək infeksiya yoxdur.

**Xatırladaq ki, yayılan məlumatlara görə, Bakıda 2 yaşlı Həsən Abdulmüslümov dənizdə çimdikdən sonra qusmağa başlayıb, temperaturu yüksəlib və sonra dünyasını dəyişib. Uşağın dayısı Rüfət Quliyev körpənin sağlam olduğunu bildirməklə yanaşı, eyni zamanda, onun qısa bir müddət ərzində dünyasını dəyişdiyini söyləyib.**



## Bağlanan "Zəngəzur" generalla konfliktdə imiş

### Kütləvi zəhərlənmə ilə əlaqədar hadisənin baş verdiyi obyekti hadisədən əvvəl 3 milyona almaq istəyirmişlər, amma...

**Kütləvi zəhərlənmə ilə əlaqədar hadisənin baş verdiyi "Zəngəzur" şadlıq sarayı bağlanıb. Bu barədə mediaya Respublika Gigiyena Mərkəzinin Qidalanma gigiyenası şöbəsinin müdiri İmran Abdullayev məlumat verib. İ.Abdullayev bildirib ki, şadlıq evində baş vermiş kütləvi zəhərlənmə ilə bağlı hazırda laborator müayinələr davam etdirilir. Şöbə müdiri bildirib ki, ilkin müayinələr zamanı hazır qidalarla bişməmiş qidaların bir yerdə saxlanılması, hazırlandıqdan sonra çirklənməsi halları qeydə alınıb: "Məlum olub ki, şadlıq evində qidaların, hazırlanan yeməklərin saxlanılmasında gigiyenik və saxlanma qaydalarında kobud pozuntuya yol verilib".**

Xatırladaq ki, "Zəngəzur" şadlıq evində kütləvi zəhərlənmə baş verib. Avqustun 8-də Binəqədi rayonundakı "Zəngəzur" şadlıq evində keçirilən toy mərasimində baş vermiş zəhərlənmə hadisəsində 77 nəfər zəhərlənən, o cümlədən 15 uşaq tibbi yardım almaq tibb müəssisələrinə müraciət ediblər. Müraciət edənlər əsasən Kliniki Tibbi Mərkəzə və 7 nömrəli Uşaq Yoluxucu Xəstəxanasına yerləşdiriliblər, onlara müvafiq tibbi yardım göstərilib.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova** movqe.az-ın əməkdaşına bildirib ki, hazırda 36 nəfərin müalicəsi davam edir, onlardan bir neçəsi avqustun 11-də evə buraxılıb. Hazırda xəstəxanada müalicə alanlardan 15-i uşaqdır.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, Zəngəzurun yaxınlığında onunla eyni tipli - yəni şadlıq sarayı, restoran və saunası olan kompleks tikilib. Məlumatda iddia olunur ki, həmin obyekt Azərbaycanın çox nüfuzlu generallarından biridir. Həmin adam "Zəngəzur"un sahibindən kompleksi bağlamağı tələb edib. "Zəngəzur"un sahibinə hətta kompleksi satmaq təklif edilib. Obyektə 7 milyon dollar qiymət qoyulsa da, generalın adamları yalnız 3 milyon verə biləcəklərini deyiblər. Anlaşma bu səbəbdən alınmayıb.

Obyektin bağlanması ilə generalın adamları arasında konfliktin nə dərəcədə əlaqəsi olub-olmadığını demək olmaz. Çünki ortada zəhərlənmə faktı var. Amma o da faktdır ki, "Zəngəzur" kimlərinsə biznesinə manea olub və zəhərlənmə olayı rəqiblərin işinə yarayıb.

❑ **"Yeni Müsavat"**

## Generalın övladlarının ölkədən çıxmasına kömək edənlərə cəza istənilib

### Prokuror polis nəzarətində olan şəxslərin də məhkəmə zalındaca həbs olunmalarını istəyib

**Avqustun 11-də Bakı Ağır Cinayətlər Məhkəməsində Gülnarə Şəkinskayanın və övladlarının sərhədi qanunsuz keçmələrinə köməklik göstərməkdə, saxta sənədlər düzəltməkdə və digər cinayətlərdə təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı Fərid Nağıyev çıxış edərək təqsirləndirilən şəxslərə cəza istəyib. Dövlət ittihamçısı bildirib ki, onların törətdikləri cinayətlər tam sübuta yetirilib. Prokuror təqsirləndirilənlərdən Namiq Camalovun 9, Pənah Dadaşov və Raqub İsbəndiyarovun 7 il, digərlərinin *(Saçlı Həsənova, Zeynəb Cəfərova, Şəfiqə Bağırova, Pərvin Dadaşov, Rəvanə Dadaşova, Tahir Hüseynov, Günel Hüseynova, Adəm İsgəndərov və Ənnab İsgəndərovun)* 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilmələrini, polis nəzarətində olan bu şəxslərin məhkəmə zalındaca həbs olunmalarını istəyib.

Qeyd edək ki, ittiham aktına görə, təqsirləndirilən şəxslər Saçlı Həsənova, Namiq Camalov, Raqub İsbəndiyarov, Zeynəb Cəfərova, Şəfiqə Bağırova, Pərvin Dadaşov, Rəvanə Dadaşova, Tahir Hüseynov, Günel Hüseynova, Adəm İsgəndərov, Pənah Dadaşov və Ənnab İsgəndərovadır.

Həmin şəxslər Gülnarə Şəkinskayanın, eləcə də onun övladları - Həmidə, Məryəm, Nadiya və Cəvahir Şəkinskilərin dövlət sərhədini qanunsuz keçmələrinə yardım ediblər və bu məqsədlə cinayət əlaqəsinə giriblər. Bu məqsədlə G.Şəkinskaya keçmiş həyat yoldaşı Emin Şəkinskinin evindəki dəmir seyfdən 60 min manatı oğurlayıb.

Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 177.3.2 *(oğurluq)*, 320.1 *(rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlanma, satma və ya saxta sənədlərdən istifadə etmə)* və 318.2-ci *(Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz keçmə)* maddələri ilə ittiham olunurlar.



Emin Şəkinski

Cinayət işi üzrə təqsirləndirilən şəxslər - Gülnarə Şəkinskaya, onun qardaşı Fərid Yusub və Azərbaycan Miqrasiya Mərkəzinin sədri Əlövsət Əliyev istintaqdan gizləndiklərinə görə barələrində axtarış elan olunub.

Onların cinayət işi ayrıca icraata verilib. Hazırda həmin cinayət işi üzrə ibtidai istintaq aparılır.

**Qeyd edək ki, Emin Şəkinski Azərbaycan Daxili İşlər Nazirliyinin Baş Cinayət-Axtarış İdarəsinin rəisidir.**

## 700 ballılar və ali məktəblərin reytinqi



**Etibar ƏLİYEV**
**təhsil eksperti**

**Cəmiyyəti təhsilin pillələrinin içərisindən ən çox orta təhsil maraqlandırır. İnsanlar haqlıdırlar: uşaqların gələcək taleyi məhz təhsilin bu pilləsindən asılıdır. Bu səbəbdən dünyada təhsil sahəsində aparılan islahatlar və tədqiqatların böyük hissəsi orta təhsilə aiddir. Keyfiyyətli orta təhsili olan dövlətlər ali təhsil sarıdan bir o qədər narahat olmurlar. Amerika pedaqoqu və filosofu Con Dyüinin fikrincə məktəbin vəzifəsi uşağın beynini müxtəlif məlumatlarla doldurmaq yox, onda hər bir insanın malik olduğu qabiliyyəti və təmayülləri, istedad nişanələrini oyatmaq və inkişaf etdirməkdən ibarət olmalıdır. Bu baxımdan məktəbin üzərinə həqiqətən böyük yük düşür.**

Elə bir məqam yetişməlidir ki, bizim orta məktəblər uşaqlarda istedad nişanələrini oyatmalı, onların layiqli vətəndaş kimi yetişməsinə yardımçı olmalıdır. Yerli və Beynəlxalq Fənn olimpiadalarında bizim uşaqların layiqincə təmsil olunmaları, həmçinin onların qəbul imtahanlarında yüksək nəticələr əldə etmələri bizi sevindirir. Məktəb təhsilinin keyfiyyətinin qiymətləndirilməsinin müxtəlif meyarları mövcuddur. Məncə uşaqların yüksək nəticələr göstərməsi bu istiqamətdə xüsusi meyar kimi dəyərləndirilməlidir. Dünyada universitetlərin reytinqinin qiymətləndirilməsində onların məzunlarının keyfiyyət göstəriciləri də nəzərə alınır. Yerli səviyyədə keyfiyyətin qiymətləndirilməsində bu amil mühüm rol oynamalıdır. Ən yüksək nəticə göstərən abituriyentlər seçim edərkən ali məktəbin reytinqini nəzərə alırlar. Bu onların haqqıdır. Çünki onlar qalibdirlər.

Bu tədris ilində 700 bal toplayanların sayı ötən tədris ilinə nisbətən 2 dəfə çox olub. Belə olan halda ali məktəblərin reytinqləri əvvəlki illərə nisbətən bir qədər aydınlaşır: 700 ballıların ixtisas seçiminə diqqət edək:

ADA universiteti - 4 nəfər

Bakı Ali Neft Məktəbi - 3 nəfər

Prezident yanında Dövlət İdarəçilik Akademiyası - 2 nəfər

Tibb Universiteti - 2 nəfər

Qafqaz Universiteti - 1 nəfər

Bakı Dövlət Universiteti - 1 nəfər

İstifadə etdiyim mənbədə (modern.az) abituriyentlərin biri ixtisas seçimi barədə hələ fikirləşdiyini bildirmişdi.

Göründüyü kimi, yüksək nəticə göstərən abituriyentlər yeni yaradılmış ali məktəblərə daha çox üstünlük verirlər. Onlar "yaşlı", eyni zamanda əvvəllər böyük nüfuza malik olan Azərbaycan Pedaqoji Universiteti, Dillər Universiteti və Neft Akademiyası kimi ali məktəbləri seçmirlər. Tibb Universitetinin isə alternativi olmadığından bu ali məktəbi seçənlərin başqa yolu qalmır.

Sevindirici hal ondan ibarətdir ki, ixtisas seçimi edən 13 yüksək ballıların 6-sı texniki ixtisasları seçiblər. Görünür, məktəb (repetitorlar yox!) onlarda bu sahədə istedad nişanələrini oyada bilib.

Bu ilin 700 ballılarının seçimi nəyi göstərdi?

Bakı Ali Neft Məktəbi və ADA Universiteti nüfuzlarını qorumaqla yanaşı, həm də artıra biliblər;

Qafqaz Universitetinin nüfuzu ötən illərə nisbətən aşağı düşüb;

700 ballıların belə seçimi 600-700 intervalında bal toplayanların seçiminə də təsirini göstərəcək.

Sonda gəldiyim qənaət bundan ibarətdir ki, yaxşı ali məktəbin qurulması üçün mütləq "inkişaf edən təhsil mühiti" vacib şərtlərdən biri olmalıdır. Sonra gəlir professor-müəllim heyətinin seçiminin yaxşılaşdırılması və elmi tədqiqatların inkişafı.

**Bunlar təmin olunduqdan sonra yüksək ballılar başqa ölkələrin ali məktəblərində təhsillərini davam etdirməyə meyl göstərməyəcəklər.**

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

**Son** **ayların ən səs-küylü siyasi hadisələrindən biri ölkənin ən zəngin oliqarxlarının “maliyyə xəyanəti” ittihamı ilə həbs edilməsidir. Mətbuatın əsas mərkəzi mövzularından olsa da, hüquq-mühafizə orqanları işlə bağlı məlumatları bölüşməyə xəsislik edirlər.**

# Beynəlxalq Bankı batıran bankirin özü də batır

## Cahangir Hacıyev mülkləri satışa çıxarıb, sabiq bankirin ölkədən çıxışına qeyri-rəsmi qadağa var

Ötən saylarımızdan birində Cahangir Hacıyevin Beynəlxalq Bank sədrliyindən uzaqlaşdırılandan sonra özünün də istintaqa cəlb edilməsi haqda yazmışdıq. Mənbə bildirmişdi ki, sabiq bankiri istintaqla əməkdaşlıq etdiyinə görə həbs etməyiblər. Mənbəmizin verdiyi son məlumata görə, C.Hacıyev kreditlərlə bağlı bütün məlumatları istintaqçılarla bölüşür, kreditlərin kimlərin xahişi ilə verilməsi ilə bağlı olan məlumatları da gizlətmir. Konkret kreditlər üzrə hansı nazirin, komitə sədrinin ona zəng etdiyini açıq şəkildə istintaqçılara deyir. Buna görə sabiq bankir azadlıqda gəzir. Bundan başqa C.Hacıyev özünə yaxın olan ayrı-ayrı şəxslərin adına götürülən kreditlərin ödənilməsini də təmin etməlidir. Məlumata görə, C.Hacıyevin hazırda maliyyə durumu həddən artıq pisdir, əmlaklarını belə satışa çıxarıb. Mənbəmiz deyib ki, C.Hacıyevin ölkədən çıxışına da qadağa qoyulub. Qeyri-rəsmi tətbiq olunan qadağa rəsmiləşə də bilər.

“Azadlıq” qəzeti C.Hacıyevlə bağlı aldığımız məlumatları dolayısı ilə təsdiqləyən məlumat yayıb. Qəzetin yazdığına görə, Beynəlxalq Bankla bağlı “kredit qalmaqalı” 7 yüksək vəzifəli məmur hədəfə gəlib. Məmurlar Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyevdən iri məbləğli kredit xahişi ediblər. Bu fakt Beynəlxalq Bankla bağlı araşdırmalar başlanarkən bəlli olub. Bildirilir ki, Cahangir Hacıyev həmin məmurların və onların xahişini etdiyi şəxslərin siyahısını ölkə başçısı İlham Əliyevə təqdim edib. Ölkə başçısı dərhal həmin məmurları yanına çağıraraq onlardan izahat tələb edib. Məmurlar isə götürülən kreditlərə qarant durduqları və tezliklə pulların geri qaytarılacağı barədə ölkə başçısına söz veriblər. Məlumatda deyilir ki, İlham Əliyev həmin məmurlara pulların qaytarılması üçün konkret vaxt qoyub. Əgər deyilən müddətdə pullar geri qaytarılmazsa, bu məmurlar ən yaxşı halda vəzifələri ilə vidalaşaraq əmlaklarının bir hissəsindən imtina etməli olacaqlar.


Cahangir Hacıyev

Qəzet yazır ki, məmurların qarant durduğu sahibkarlar hazırda həbsdədirlər.

Xatırladaq ki, “kredit qalmaqalı”na görə xeyli sayda sahibkar DIN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılıb. Kredit borcunu ödəyən sahibkarlar bir neçə gün sonra sərbəst buraxılıb. Bu sırada “Xəzər adaları” layihəsini həyata keçirən Hacı İbrahim Nehrəmli, “Metanol” zavodunun sahibi Nizami Piriyev və digərlərini göstərmək olar. Borcunu ödəməyənlər barəsində isə həbs-qətimkan tədbiri seçilib. Qeyri-rəsmi məlumatlara görə, bu qalmaqalda ümumilikdə 6 milyard manatdan söhbət gedir.

C.Hacıyev Beynəlxalq Bankdan uzaqlaşdırılandan sonra maliyyələşdirdiyi Bakının “İnter” klubunda da maliyyə durumu çətinləşib. İş o yerə çatıb ki, Avroliqa qarşılaşmaları çərçivəsində səfər oyunlarına AFFA-nın maliyyə yardımı ilə yollanan klubda futbolçular bir neçə aydır maaş ala bilmir. Belə xəbər də var ki, klubun futbolçuları İspaniya təmsilçisi “Atletik”lə Bakıdakı cavab oyunundan öncə meydana çıxmaqdan imtina ediblər. Hələ iyunda C.Hacıyevin maliyyələşdirdiyi başqa bir klubun - “Simurq”un adının dəyişdirilməsi ilə bağlı başlanan müzakirələr də davam edir. Bildirilir ki, Beynəlxalq Bankın sabiq rəhbərinin Zaqataladakı klubunun 22 milyon dollar borcu var və böhranlı komandaya sponsorluq etmək istəyən yoxdur. AFFA isə “Turan”ın borclarını “Turan T” adı ilə sildiyi kimi, indi də “Simurq” və “İnter”in adını dəyişərək klubları bu borclardan xilas edə bilər. Sabiq bankirin “İnter” komandasının ayağında 38 milyon dollar borc var. Yaxın zamanlarda komandanın adının dəyişməsi istisna deyil.

**Bu xəbərlər də Cahangir Hacıyevin kəskin pul böhranı ilə üzləşməsi haqda məlumatları da təsdiqləmiş olur. Görünən odur ki, C.Hacıyevin batırdığı bankla bərabər özü də batır.**

❑ E.HÜSEYNOV

# Göygölə gəl, Göygölə...



## Azərbaycanın bu ecazkar gölünə giriş məhdudiyyətinin götürülməsi insan seli yaradıb

**İllərdir ki, girişinə məhdudiyyət qoyulan Göygöl Milli Parkı artıq turistlərin üzünə açıqdır. Bundan sonra hər bir azərbaycanlı və ölkəmizə gələn turist buranı ziyarət edə bilər.**

### Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Hikmət Əlizadə: “Həmin ərazidən 700 maşın zibil daşımışıq”

Göygölə gələnlərin rahat bir şəkildə gəzməsi və istirahət etməsi üçün hər cür şəraitin yaradıldığını deyən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin *(ETSN)* Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin direktor müavini Hikmət Əlizadə vaxtı ilə bura məhdudiyyət qoyulmasının səbəblərindən və hazırkı vəziyyətindən danışdı: “Göygöl uzun əsrlərdən bəri azərbaycanlıların çox sevdiyi və hər zaman ziyarət etdiyi məkanlardan olub. Lakin 1990-cı illər, eyni zamanda 2000-ci illərin əvvəllərində Göygöl ətrafında xaos hökm sürüb və bu təbiət obyekti pis şəkildə istismar olunub. Əvvəllər bu əraziyə tənzim olunmayan qaydada insan axını olub, Göygöl ərazisində və onun ətrafında kef məclisləri qurulub, ətraf aşırı qaydada zibillənib, tonqal qalanıb, meşələr qırılıb, su çirkləndirilib. Ərazinin bu cür neqativ hallardan mühafizəsi və qorunması məqsədi ilə 2008-ci ildə Göygöl Milli Parkı yaradılıb və bundan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsas funksiyası Göygölü mühafizə etmək, qorumaqdan ibarət olub. Bu gün də Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun olaraq ərazi mühafizə edilir. Amma təbiətin özünü bərpa etməsi, göldə, meşələrdə bərpa prosesinin getməsi və ətraf mühitin mühafizəsi məqsədi ilə bir müddət parka giriş məhdudlaşdırılıb. Təbii ki, bu müddət ərzində Göygöldə elmi-tədqiqat işləri aparılıb, təbii bərpa prosesi gedib, eyni zamanda ərazi uzun illər ətrafda qalaqlanıb qalmış tullantılardan da təmizlənib. Biz həmin ərazilərdən 700 maşından artıq zibil daşımışıq”.

**H.Əlizadə Göygölə gələn hər kəsin rahat istirahət etməsi üçün hər cür şəraitin yaradıldığını dedi:** “Artıq bir neçə gündür ki, Göygöl milli parkı ziyarətçiləri qəbul edir. Bununla belə, Göygöl Milli Parkı birdən-birə kütləvi surətdə ziyarətçiləri qəbul etmək iqtidarında deyil. Əgər belə kütləviliyə yol verilsə, əvvəlki proseslərə qayıtmış olacağıq və nəticədə Milli Parkın ərazisi, Göygölün füsunkar mənzərəsi yenidən tapdaq altında qala bilər. Ona görə də Milli Parkın mühafizə rejiminə uyğun olaraq ziyarətçilərin daxil olmasında müəyyən məhdudiyyətlər və tənzimləmə həyata keçirilməsi zərurиləşib. Bu o deməkdir ki, əvvəllər olduğu kimi ziyarətçilər özbaşına və heç bir nəzarət olmadan ərazidə tonqal qalayıb kabab çəkə, meşəni tullantılarla çirkləndirə bilməzlər. Bunlar nəzərə alınaraq ziyarətçilərin bütün təbəqələri üçün müvafiq infrastruktur və şərait yaradılıb. Orada özəl təşkilatlar müxtəlif təbəqəli insanlar üçün onların maddi vəziyyətlərinə uyğun restoranlar, otellər açıblar. Hətta ziyarətçilərin fərdi şəkildə, ailəvi surətdə dincəlməsi, özü ilə gətirdiyi yeməyi hazırlaması üçün də müvafiq guşələr (”besedka”lar) yaradılıb, manqallarla təchiz edilib, zibil qabları qoyulub. Artıq insanlarımız, həm təbiətdən zövq ala biləcək, həm də ərazidən ictimai-iaşə məqsədilə istifadə edə biləcək. Amma təbii ki, park ərazisində bütün hərəkətlər xüsusi marşrutlar üzrə bələdçilərin müşayiəti və nəzarəti ilə həyata keçiriləcək. Göygöl Milli Park statusuna malik olan ərazidir. Həm də əhali üçün maarifləndirici xüsusiyyət daşıyır. Bələdçilərimiz var, turistlərin şüurlu surətdə müəyyən edilmiş marşrutlarla gəzintisinə icazə verilir. Yoxsa turistin özbaşına harada istədi gəzməsi, ocaq qalaması, ərazini zibilləməsi yolverilməzdir. Belə hallar olarsa, həmin şəxslər barəsində inzibati qaydada cərimə tətbiq ediləcək".

**ETSN rəsmisi bildirdi ki, Göygöl gözəl təbiət abidəsindən əlavə, həm də Gəncə şəhərinin su mənbəyidir:** “Oranın mühafizəsi strateji əhəmiyyətli məsələdir. Bununla əlaqədar da bələdçilərimiz insanlar arasında maarifləndirici vərəqlər paylayacaq və təbliğat işləri aparacaqlar. Göygöl Milli Parkına Nazirlər Kabinetinin 21 aprel 2015-ci il qərarına əsasən 2 manat ödəniş etməklə daxil olmaq mümkündür”.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# Moskva və İrəvan üçün gözlənilməz sürpriz

**İranın nüvə dosyesi ilə bağlı Tehranla "altılıq" ölkələri arasında ötən ay əldə olunan Vyana anlaşmasından sonra cənub qonşumuzun sivil dünyaya sanki yeni bir açılışı başlayıb. Eyni zamanda böyük bir bölgədə, həmçinin İranın Qərb, Türkiyə və Azərbaycanla, digər qonşuları ilə münasibətlərində keyfiyyət dəyişiklikləri özünü göstərməkdədir. Hətta proseslərin regionun yenidən şəkillənməsinə gətirəcəyini real sayanlar var.**




## Tehran üzünü Bakı və Ankaraya çevirir - qaz savaşında mühüm gəlişmə

İran Azərbaycanla neft-qaz danışıqlarına başladığını rəsmən bəyan etdi; öz arxasında Qərbin iradəsini hiss edən cənub qonşumuz TANAP-a qoşula, NABUCCO-ya həyat da verə bilər; işğalçı Ermənistanın kəmər arzuları və böyük tranzit gəlirləri ilə bağlı gözləntiləri puç olmaqdadır...

Əsas diqqət gözlənildiyi kimi, sanksiyalardan qurtulmuş Tehranın nəhəng neft-qaz potensialı və bu potensialın necə reallaşacağınadır. Çünki sözü gedən potensial dünya enerji bazarında vəziyyəti kökündən dəyişə bilər. Odur ki, hamı, ələlxüsus qonşu ölkələr bu prosesdən daha çox pay götürmək üçün tələsir və İranla daha tez anlaşmaya can atır.

***

Bu arada İran Azərbaycanla birgə dünya bazarlarına qaz ixracı məsələsinə dair Bakı ilə danışıqlara başladığını bəyan edib. Musavat.com-un məlumatına görə, bu barədə İranın İSNA agentliyi xəbər yayıb. "Bu, o anlama gəlir ki, Tehran artıq qazın Avropaya boru xətti ilə çatdırılması planına qayıdıb" - agentlik qeyd edir. Agentlik habelə, İranın Milli Qaz Şirkətinin direktoru Əlirza Kamalinin sözlərinə istinadən xəbər verir ki, onun şirkəti bu problemlə bağlı ARDNŞ-lə ciddi danışıqlara başlayıb.

"Tehran və Bakı qaz ixracı layihələrinə birgə sərmayələr qoymaqla bağlı danışıqlar aparıblar. Eyni zamanda İran yaxın üç ildə qaz istehsalını artırmaq niyyətindədir", - deyə Kamali vurğulayıb. İSNA-ya görə, nəhəng neft yataqları çoxdan imkan yaradırdı ki, İran Avropaya əsas qaz ixracatçılarından birinə çevrilsin.

Yada salaq ki, İranla qaz danışıqlarını vaxtilə NABUCCO konsorsiumu və İsveçrənin energetik nəhəngi EGL stimullaşdırmışdı. Lakin müxtəlif əngəllər, ilk növbədə də sanksiyalar məcbur elədi ki, hər iki potensial tərəfdaş Avropaya qaz xətti planlarına İranı daxil eləməsin. Lakin sanksiyalar götürüldükdən sonra bu məsələ yenidən gündəmə gələ bilər.

İSNA qeyd edir ki, hazırkı şərtlərdə Azərbaycanın iştirakı ilə daha ciddi plandan danışmaq olar. **Sitat**: "Belə ki, az öncə Tehrana səfəri zamanı Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev İranın neft naziri Bican Zənganiyə demişdi ki, İslam Respublikası öz neft-qazını Avropaya çatdırmaq üçün Azərbaycanın hazırkı infrastrukturundan, xüsusən də Bakı-Tiflis-Ceyhan xəttindən istifadə edə bilər. Mustafayev onu da əlavə eləmişdi ki, gələcəkdə Tehran TANAP-a *(Trans-Anadolu Qaz Kəməri)* da qoşula bilər".

Azərbaycanlı naziri Tehranda prezident Həsən Ruhani də qəbul eləmişdi; bu da sözsüz ki, tərəflər arasında danışıqların, xüsusən də Tehranın məsələdə tranzit və ixracatçı ölkə kimi Azərbaycana verdiyi önəmi nümayiş etdirirdi.

Xatırladaq ki, 1850 km-lik TANAP kəməri "Şahdəniz-2" qazının Türkiyəyə, oradan da Avropaya çatdırılmasını nəzərdə tutur. Kəmərin inşası bu ilin martında başlayıb və 2018-ci il üçün yekunlaşmalıdır.

***

Pozitiv haldır ki, Vyana anlaşmasından sonra üç qonşu və aparıcı müsəlman dövləti - İran, Türkiyə və Azərbaycan arasında siyasi-diplomatik, iqtisadi-ticari, energetik və digər sahələr üzrə yaxınlaşma prosesləri sürətlənib. Bunu həm də yüksək çinli rəsmilərin qarşılıqlı səfərləri təsdiq edir. İran xarici işlər naziri Məhəmməd Cavad Zərifin Türkiyəyə səfərinin də təhlilçilərin qənaətincə, çox faydalı olacağı ehtimal olunur. Nazirin iki ölkə arasında əsas ziddiyyətli məsələ olan Suriya böhranına dair Ankaraya həll variantı təklif edəcəyi gözlənilir.

Bundan öncə İran-Türkiyə parlamentlərarası dostluq qrupunun üzvü, İran parlamentinin İqtisadiyyat komissiyasının üzvü Zərifin Türkiyəyə gözlənilən səfərini şərh edərkən demişdi ki, İranla Türkiyə öz aralarında ticarət dövriyyəsinin həcmini 30 milyard dollara çatdırmaq barədə düşünməlidir, çünki buna iki ölkənin potensialı var. **Sitat**: "Əlaqələr həm siyasi, həm də iqtisadi sahədə genişləndirilməlidir. Bizim əlaqələr xüsusilə də təhlükəsizlik sahəsində çox əhəmiyyətlidir. İran və Türkiyə iqtisadiyyatı bir-birini tamamlayır. İki ölkə iqtisadiyyatının potensialı o qədər genişdir ki, ticarət əlaqələri 30 milyard dollardan da artıq ola bilər. Ümid edirik ki, qarşılıqlı səfərlər öz müsbət təsirini göstərəcək və mövcud problemləri və anlaşılmazlıqları müəyyən qədər aradan qaldıracaq".

**Daha öncə isə rəsmi Tehran 7 ölkə vətəndaşlarına qarşı viza rejiminin ləğv etdiyini açıqlamışdı. Maraqlıdır ki, onların arasında qonşu Azərbaycan, Türkiyə və Gürcüstan olsa da, Ermənistan və Rusiya yox idi...**

***

Hər şeydən göründüyü kimi, Tehran ilk növbədə üzünü Bakı və Ankaraya tutmağa başlayıb ki, bu da hər üç tərəfə çox ciddi qarşılıqlı iqtisadi, energetik, siyasi-diplomatik dividentlər vəd edir. Söhbət həm də bölgədə qarşılıqlı etimadın gücləmməsi və etibarlı təhlükəsizlik sisteminin yaradılmasından gedir. Çünki iqtisadi bağlılıq həmişə siyasi bağlılıq yaradır və qarşılıqlı inam-etimadı möhkəmlədir. Belə münbit şəraitdə isə istənilən ortaq problemin və ya təhlükənin *(PKK, İŞİD və s.)* həlli xeyli asanlaşır.

O da sirr deyil ki, dünyanın müəyyən məkrli dairələri İslam dünyasını zəiflətməyə, xüsusən də onun Türkiyə və İran kimi qabaqcıl, güclü dövlətləri arasında nifaq salmağa çalışırlar. Şimal qonşumuz Rusiya da o qəbildəndir və heç şübhəsiz Bakı-Tehran-Ankara qaz danışıqlarına və mümkün (tranzit) anlaşmalarına isti baxmır və baxmayacaq. Eləcə də onun regiondakı yeganə forpostu, marionet Ermənistan. Aydındır ki, dünya okeanına çıxışı olmayan işğalçı ölkənin o halda kəmər arzuları və özünün çökməkdə olan iqtisadiyyatını böyük tranzit gəlirləri hesabına dirçəltməklə bağlı gözləntiləri puç olur.

Rusiyaya gəlincə, İrana qarşı sanksiyalaradək Moskva 4 əsas məsələdə - Suriya böhranı, vaxtilə KQB-nin yaratdığı PKK məsələsi, Xəzərin statusu və Ermənistan məsələsində Tehranla həmişə demək olar, oxşar mövqe sərgiləyib. Ermənistan da bu mövqedə olub. Lakin Vyana anlaşması ilə həmin ortaq maraqlar arxada qalıb və ya qalmaqdadır.

Kremlin nigarançılığı həm də ondandır ki, məsələn, Xəzərin hüquqi statusu məsələsində İran da Qazaxıstan kimi Azərbaycanla ikitərəfli şəkildə anlaşdıqdan sonra təkləmə, habelə Qarabağ məsələsində Tehran Bakını daha güclü dəstəkləyə bilər. Bu yerdə onu da xatırladaq ki, Rusiya yaxınlarda Xəzərin dibi ilə çəkiləcək qaz kəməri ilə bağlı Bakını açıq şəkildə hədələyərək bəyan eləmişdi ki, xəzəryanı ölkələrin razılığı olmadan belə kəmərlər çəkilə bilməz. Hədəf təbii ki, TANAP idi. Lakin İran TANAP-a qoşulandan sonra bu hədə öz əhəmiyyətini xeyli itirə bilər.

Onu da ciddiyə alanda ki, şimal qonşumuz İranı Avropa qaz bazarında, Qərbə qarşı qaz şantajında özünə əsas rəqib sayır, o zaman önümüzdəki aylarda Kremlin Bakı-Tehran-Ankara münasibətlərinə xal salmaq üçün hərəkətə keçəcəyi və hansısa məkrli planları işə salacağı ehtimalı gözardı edilməməlidir. Son vaxtlar Rusiyanın Güney Qafqazda, işğal edilmiş Gürcüstan ərazilərində və Ermənistanda hərbi cəhətdən daha da möhkəmlənmək planları bu yöndə narahatlığı artırır.

❑ **Siyasət şöbəsi**

# "Yaxçi qız basketbol oynamaz"



**Samir SARI**

**İndi sizə nəql edəcəyim olayı dünən mənə TQDK-da şagirdlərin mərkəzləşdirilmiş imtahanlarının nəticələrini yoxlayan bir yaxın adam danışıb. Müəllimin dediyinə görə, riyaziyyat imtahanında suallardan biri belə olub ki, bir qrupda basketbol oynayan oğlanlar və qızlar var, verilən rəqəmləri toplayıb-vurub-çıxıb-bölərək tapın ki, basketbolçuların nə qədəri oğlandır, nə qədəri qızdır.**

Bu suala yeddinci sinif şagirdlərinin hərəsi bir cür cavab verib. Əksəriyyəti məsələnin cavabını düz tapmayıb. Bu heç. Amma bir şagird "bizdə basketbol oynamağa boy vaar?" deyə cavab yazıb. Biri qeyd edib ki, basketbol yaxşı oyundur, bacaranlar oynasın. Başqa biri isə belə bir cavab yazıb: "Vapşem, yaxçi qız basketbol oynamaz, gedib kuxnada yeməgini bişirər".

Nə qədər sərrast! Necə də müdrikcəsinə! "Yaxçi qız kuxnada yemək bişirər". Vəssalam.

Ola bilər, bu hər sözə bir söz qoşmaq, lağlağı etmək, hər dəm şən və hazırcavab biri olduğunu göstərmək istəyən yeniyetmələrə xas hərəkətlər silsiləsindəndir, amma burası dəqiqdir ki, basketbolçu qızlar-oğlanlar məsələsini bu cür həll edən yeniyetmə bisavaddır. Əgər o, məktəbdə tədris olunan riyaziyyat fənnini əxz etmiş olsaydı, oturub ağıllı-başlı cavab yazardı, daha "yaxçi qız"ın necə olması barədə məhəllə ağzıyla fəlsəfi traktat irad eləməzdi.

Bu sözləri yazıram, yadıma özümüzün yeddinci sinifdə oxuyarkən elədiyimiz bənzər hadisələr düşür. Biz də lağlağıydıq, fərağat durmurduq. Məsələn, bir dəfə dərs-filan oxumayan bir sinif yoldaşımızı - Poladı öyrətmişdik ki, rus dili müəllimindən "jopa"nın nə demək olduğunu soruşsun. Polad durdu, kamali-ədəblə Məcnun müəllimdən soruşdu: "Müəllim, jopa nə deməkdir".

Özü də Polad bunu elə bir ədayla dedi ki, sanasan, rus dilini mükəmməl bilir, yalnız bu sözü bilmir, o da ona görə ki, dərsliklərdə, kitablarda qarşısına çıxmır.

Məcnun müəllim altdan-altdan qımışanlara baxıb arğacın kimdən keçdiyini dərhal bildi, amma üstünü vurmadı, dedi ki, Polad, tənəffüsdə deyərəm. Zəng bayıra vurulanda Polad təkrarən soruşdu ki, müəllim, sualımın cavabı nə oldu. Məcnun müəllim gözlədi, qızlar sinifdən çıxan kimi bağıra-bağıra sözün dilimizdəki ən məşhur qarşılığını üç dəfə təkrarlamaqla dedi və soruşdu: "Qane oldun, Polad?"

Bu, indi hamımıza məzəli hadisə kimi görünə bilər, amma o vaxt müəllimlər, ümumiyyətlə, bizdən böyüklər yeddincilərin, səkkizincilərin necə tərbiyəsiz, qanacaqsız olduğundan danışırdılar. Biz böyüyəndən sonra isə həmin şəxslər bizi nəzərdə tutaraq yeni nəsil haqqında deyirdilər, o birilər adam balasıymış, indikilər lap vəhşidir. Hətta bir müəllim yaramazlıq edən və müəllimə cavab qaytara biləcək uşaqları öncədən müəyyənləşdirmək üçün xüsusi bir əlamət kəşf eləmiş və həmkarlarına önərmişdi: "Gördünüz ki, uşaq başını Cimi kimi geri darayıb, ona söz deməyin, sarsaqlayacaq".

Təbii ki, indi o dəcəl uşaqların çoxu ağsaqqallaşıblar və onlar da indiki dəcəl, lağlağı, qeyri-ciddi və qanacaqsız gənc nəsli bəyənmirlər. Polad da Rusiyada yaşayır, Məcnun müəllimdən tərcüməsini tələb etdiyi sözü hər gün eşidir. Amma biz yaxşı oxusaq da, pis oxusaq da, imtahan vərəqinə belə bir şey yaza bilməzdik, cürət etməzdik. İndikilərin əksəriyyəti həm çox bisavaddırlar, həm də özlərini çox ağıllı sayırlar.

Hal böylədir, əziz oxucular. Göz görə-görə hər gün orta əsr cahilliyinə, nadanlığına doğru gedirik.

Bir xeyli yeniyetmə və gənc əmələ gəlib ki, "yaxşı oğlan", "pis oğlan", "yaxşı qız", "pis qız" kateqoriyaları müəyyən ediblər və tay-tuşlarını o cür təsnifatlandırırlar. Xüsusi kodeksləri var: "Yaxşı oğlan dostunun yolunda ölümə gedər", "Yaxşı oğlan içəridəkiləri (türmədəkiləri) unutmaz, onlara pay göndərər", "Yaxşı qız 9-dan sonra oxumaz", "Yaxşı qız internetə girməz" və sair bu kimi onlarla səfeh-səfeh şərtlər.

Bu cür şərtlərin içində "yaxşı oğlan ona atılan sözü peysərə verməz" də var. Peysərə verməz, nə edər? Gedib bıçağı saplayar, yortar, təpiyin altına salar və gedib türmədə yatar.

Kəsəsi, belə çıxır ki, yaxşı oğlan gün görməz, ya 18-20 yaşında bıçaqlaşmada ölər, ya da günü türmələrdə keçər.

Amma yaxşı qızların işi yaxşıdır, basketbol oynamasınlar, mətbəxdən çıxmasınlar, yetər.

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# Bulvarı sevənlər “Ağ Şəhər”ə axışır

## İnsanları bura cəlb edən üç səbəb







**Axşamlar dəniz kənarında gəzməyi sevən insanlar son vaxtlar bulvarın “Ağ Şəhər” ərazisinə düşən hissəsinə daha çox üz tuturlar. Axşam saatlarında burada demək olar ki, insan əlindən tərpənmək olmur; kimi uşaqlarını əyləndirir, kimi trinajor meydançasında idman edir, kimi də sadəcə olaraq ətrafı seyr edərək gəzir.**

Uşaqdan böyüyə hər kəsin üz tutduğu bulvarın “Ağ Şəhər”ə düşən hissəsini sakinlər daha çox genişliyi və havasının rütubətsiz olması və təmizliyinə görə sevirlər. Burada istirahət edən paytaxt sakinləri bulvarın digər hissələrindən qəribə iy gəldiyini, amma həmin qoxunun burada olmadığını deyirdilər. Doğrudan da “Ağ Şəhər”də bulvar daha sadədir. Burada yaşıllığın çoxluğu isə insanın ruhunu dincəldir. Ərazidə bahalı, ekzotik “əcnəbi” ağaclar yox, gözümüzün öyrəşdiyi küknar, qovaq, söyüd ağacları əkilib. Burada bulvarı fərqli edən daha bir məqam isə uşaqlar üçün attraksionlarla dolu olan kiçik meydança və böyüklər üçün nəzərdə trenajor meydançadır. Sakinlər hər iki meydançadan pulsuz yararlana bilirlər. Futbol, basketbol və voleybol meydançası isə pulludur. Söhbətləşdiyimiz gənclər bu üç meydançanın da pulsuz olmasını arzuladıqlarını dedilər: “Bu 3 meydançada qiymətlər saata görə dəyişilir. Biz əsasən səhərlər gəlib uşaqlarla futbol oynayırıq. Səhər saatlarında qiymətlər nisbətən ucuz olur. Günorta bir az artır, axşama isə tamamən qiymət bahalaşır. Bunu da axşamlar gələnlərin çox olması ilə əlaqələndirirlər. Amma xidmət əladır. Hər şey təmiz və səliqəlidir. Digər stadionlara baxanda burada qiymət ucuzdur”.

**Trenajor meydançasında idman edən Sevda Quliyeva da buradan razılıq edirdi:** “Gəlib burada pulsuz idman edirəm. Amma alətlərin sayını bir az çoxaltsaydılar, daha yaxşı olardı. Bir də görürsən ki, bir alətin başında 5-6 nəfər gözləyir. Bir də valideynlər balaca uşaqları da bu alətlərdə idman etdirirlər. Bu axı böyüklər üçündür”.

Bulvarda ailəsi ilə birgə gəzişən Elvin Nuriyev isə deyir ki, Dənizkənarı Milli Parkdan qəribə iy gəlir. Amma burada həmin iy yoxdur, sakitçilikdir, rahatdır.

Xatırladaq ki, “Ağ Şəhər” ərazisində bulvarın sahəsi 33 hektar, uzunluğu 2.7 kmdir, neçə illərdir istifadəsiz qalan sənaye zonasının yerində salınıb.

*Maraqlıdır, “Ağ Şəhər”də başqa yeniliklər gözlənilirmi?*

**Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov gələn yay mövsümündə orada yeniliklərin olacağını dedi:** “Ağ Şəhər”də bulvarın digər hissələrindən fərqli olaraq dörd stadion istifadəyə verildi. Bunun ikisi futbol, biri basketbol, biri də voleybol üçün nəzərdə tutulub. Bulvar ərazisində bu vaxta qədər açıq tipli trenajorlar var idi, amma idman meydançası olmayıb. Şəhər sakinlərinin də çoxdankı arzusu idi ki, bulvar ərazisində voleybol, basketbol oynasınlar. “Ağ Şəhər”də 3 yerdə satış köşkləri qoyulub. Bu köşklərdə müxtəlif sərinləşdirici içkilər, uşaqlar üçün qidalar satılır. Amma bu da şəhər sakinlərini qane etmir. Çünki onlar öyrəşiblər ki, bulvar ərazisində olduğu kimi burada da kafelər, çay evləri olsun. Yay mövsümünün qurtarmasına az qaldığına görə burada yeni kafe və çay evlərinin olması real deyil. Gələn yay mövsümünə qədər çalışacağıq ki, “Ağ Şəhər” ərazisində insanların istirahəti üçün çay evləri və kafelər yaradaq. Dəqiq sayını, formasını deyə bilməsək də burada gələn yay mövsümünə qədər çay evləri və kafelər açılacaq".

**N.Məcidov buradakı trenajor alətlərinin və uşaqlar üçün nəzərdə tutulmuş əyləncələrin pulsuz olaraq qalacağını dedi:** “Yalnız stadionları çıxmaq şərti ilə digər hər şey pulsuzdur. Stadionların pullu olmasına səbəb isə xidmətin çox olmasıdır. Orada soyunma-geyinmə otağı, duş otağı var. Həmin yerlərə baxan, xidmət edən adamlar var. Həmçinin gündəlik həmin stadionların təmizlənməsi və oradakı avadanlıqların qorunub saxlanılması üçün müəyyən xərc tələb olunur. Ona görə də demək olar ki, şəhərin ən ucuz stadionları "Ağ Şəhər"dəkilərdir. Orada oynamaq saatladır. Futbol, voleybol və basketbolu başa çatdıra bilmək üçün müəyyən saat lazımdır".



❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra. **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Əyləncəli, sürətli, asan!



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- ✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- ✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- ✓ *Əla tələffüz və güvənlə danışmaq*
- ✓ *Real ingiliscə söhbətlər*

BONUS

englis EXPLOSIO

*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olun*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 5*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı*

YENİ MÜSAVAT
N 175 (6203) 12 avqust 2015

# Tanınmışlardan Bernə gedib "Qarabağ"a dəstək verən olacaqmı?

## Onların bir çoxu vaxt məhdudluğu, digəri maddi problem üzündən oyunu Bakıda izləyəcək...

**Avqustun 20-də İsveçrənin Bern şəhərində Azərbaycan çempionu "Qarabağ" futbol klubu "Avropa Liqasının play-off mərhələsi çərçivəsində Yanq Boyz" komandası ııə görüşəcək. Bu görüş azərbaycanlı azarkeşlər üçün kifayət qədər prinsipial əhəmiyyət daşıyır. Bəs matçı izləmək və komandamıza dəstək olmaq tanınmışlardan Bernə gedən olacaqmı?**



"Qarabağ" klubunun fəal azarkeşi olan deputat Aqil Abbas bildirdi ki, vaxt məhdudiyyətindən həmin oyunu yaxından izləyə bilməyəcək.

**Gənc siyasi fəal Bəxtiyar Hacıyev** də hazırda işlərinin çox olduğunu, bu səbəbdən azarkeşi olduğu komandanın Berndəki oyununa gedə bilməyəcəyini söylədi: "Qarabağ"ın Bakıda keçirilən əksəriyyət oyunlarına gedib azarkeşlik etmişəm. Lakin hazırda iş rejimim çox sıxdır, müxtəlif layihələr üzərində çalışıram. Bu səbəbdən həmin oyuna gedə bilməyəcəm".

**"525-ci qəzet"in baş redaktoru, yazıçı-jurnalist Rəşad Məcid** də təəssüflə oyuna gedə bilməyəcəyini dedi: "Çox istərdim ki, həmin oyunu orada izləyim. Ümumiyyətlə, "Qarabağ" komandasına çoxdan azarkeşlik edirəm. Komandanın mərhələləri keçərək Azərbaycan çempionu olması çox gözəl hadisədir. Öz qələbələri ilə dünyada Ağdamın "Qarabağ" futbol komandası kimi yaddaşlara həkk olunur. Ötən il "Qarabağ"a qarşı ədalətsizlik olanda mən də depressiya vəziyyətinə düşmüşdüm. Lakin sonra bu komanda yenə də özünü doğrultdu. Düzdür, komandaya xeyli sayda yeni futbolçular daxil olub, bu da oyunda öz təsirini göstərməkdədir, hələ ki, xaotik vəziyyətlər olsa da, ümumilikdə güclü komandadır".

**Rəşad Məcid komandanın oyunlarını stadiondan deyil, məhz ekrandan izləmək istəyən azarkeşləri qınayıb**: "Axırıncı oyunlara diqqət etsək görərik ki, azarkeşlərdə passivlik yaranıb. İnsanların böyük əksəriyyəti stadiona gəlib komandaya dəstək olmaqdansa evdə rahat əyləşib ekranlardan oyunu izləməyə üstünlük verir. Halbuki futbolçulara ruh yüksəkliyi vermək üçün stadionlara axışmaq lazımdır, bunun da bir mənası var - futbolçulara dəstək olmaq".

**Komandanın digər fəal azarkeşlərindən olan Müsavat başqanının müavini Elman Fəttah** isə maddi imkansızlıqdan Berndəki oyuna gedə bilməyəcək: "Qarabağ"ın demək olar ki, bütün oyunlarını sevinclə izləyirəm. Futbolu olmayan Azərbaycanda bu cür klubun yetişməsi sevindirici haldır. Xüsusilə baş məşqçi Qurban Qurbanovun azarkeşiyəm. O, çox ciddi məşqçidir. Çox təəssüf ki, "Qarabağ"ın "Yanq Boyz"la olan oyununu yaxından izləmək üçün mənim maddi imkanım yoxdur. Lakin kimsə bilet alıb məni dəvət etsə, məmnuniyyətlə gedərdim(gülür)".

**Xatırladaq ki, Azərbaycan çempionu "Qarabağ"ın "Yanq Boyz"la ilk oyunu avqustun 20-də Bern şəhərindəki "Stad de Syuiss" stadionunda keçiriləcək. Bir həftə sonra isə Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda cavab qarşılaşması olacaq.**

❑ **Xalidə GƏRAY**




# "Gəncəbank"ın vətəndaşın evini qanunsuzluqla əlindən aldığı təsdiqləndi

## Məhkəmə Heydər Əliyevin Gəncə sakininə verdiyi evi özünə qaytardı

**Gəncə Apelyasiya Məhkəməsində hakim Azər Bayramovun sədrliyi ilə Vaqif Əliyevin "Gəncəbank"a qarşı şikayəti üzrə apelyasiya şikayətinə baxılıb. Məsələ bundadır ki, mərhum prezident Heydər Əliyev fədakar əməyinə və çoxuşaqlı ata olduğu üçün Gəncə sakini Əli Əliyevə ev verib. Həmin ev isə "Gəncəbank"da baş verən saxtakarlıqlarla onun oğlu V.Əliyevin əlindən alınıb. Ə.Əliyevin 7 ailə üzvü bu gün Gəncədə kirayələrdə yaşayırlar. Bununla bağlı Vaqif Əliyev Gəncə şəhər Nizami Rayon Məhkəməsinə üz tutub. Məhkəmə "Gəncəbank"da baş verənləri araşdırmadan iddiaçının ziyanına qətnamə çıxarıb. Bundan sonra V.Əliyev Gəncə Apelyasiya Məhkəməsinə üz tutub. V.Əliyevin vəkili Əziz Qənbərov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, iş üzrə apelyasiya instansiyasında obyektiv və hərtərəfli araşdırma aparılıb. Nəticədə vətəndaşın saxtakarlıqla əlindən alınan əmlakı özünə qaytarılıb. Məhkəmə V.Əliyevin mülkünün özgəninkiləşdirilməsi ilə bağlı alqı-satqı və ipoteka müqaviləsini ləğv edib, mülk öz sahibinə qaytarılıb.**

Qeyd edək ki, bundan əvvəl Gəncənin Kəpəz Rayon Məhkəməsi "Gəncəbank"ın qanunsuzluqla ələ keçirdiyi Natalya Kərimovanın mülkiyyətində olan "Nataşa" gözəllik salonu özünə qaytarılıb. Həmin salon 2002-ci ilin yanvarın 11-də Kəpəz Rayon Məhkəməsinin qiyabi qətnaməsinə əsasən özgəninkiləşdirilib.

# Xətaidə qalmaqallı tikinti dayandırılıb

## Lakin iddialara görə, bu, yalnız müvəqqətidir, çünki obyekt yüksək vəzifəli şəxsə aid olduğundan, inşası sonra davam edəcək

**Xətai rayonu, Məhəmməd Hadi küçəsi, Ukrayna dairəsi yaxınlığında aparılan binanın tikintisinin nəqliyyatın hərəkətinə mane olduğu barədə bir neçə dəfə yazılıb. Bununla belə, tikinti işləri davam etdirilib. Tikinti aparılan ərazidə yaşıllığın məhv edilməsi də sakinlərin narazılığına səbəb olmuşdu.**

Qeyd edək ki, tikintinin bünövrəsi artıq 1 ildən çoxdur ki, qoyulub. Lakin ictimai-iaşə obyekti kimi nəzərdə tutulan obyektin tikintisi artıq dayandırılıb. Son durumu öyrənmək üçün tikinti aparılan əraziyə baş çəkdik.

Binanın bünövrəsi yolun bir neçə metrliyində salınması həm sakinlərin, həm də Ukrayna dairəsindən hərəkət edən avtomobillərin hərəkətinə və yolda sıxlığın yaranmasına səbəb olur. Tikinti aparılan əraziyə kanalizasiya suları yığılıb, ətraf zibillik içərisindədir. Nəqliyyatın intensiv hərəkət etdiyi yolun asfalt örtüyü qəzalı vəziyyətdədir.

Məhəmməd Hadi küçəsində yaşayan Hüseyn Əliyev adlı şəxs dediyinə görə, ərazidə əvvəllər park yerləşib, sıx yaşıllıq olub: "Bu tikintiyə görə də gecə ilə ağacları kəsdilər. Səhər ağaclardan əsər-əlamət də qalmamışdı. Bir ildən çoxdur ki, burada tikinti gedir. Lakin təxminən 3 ay olar iş dayanıb. Deyilənlərə görə, Fövqəladə Hallar Nazirliyi əraziyə baxış keçirib və bu ərazinin tikinti üçün uyğun olmadığı haqda qərar verilib".

Sakinlər arasında yayılan şayiələrə görə, tikinti yalnız müvəqqəti dayandırılıb, çünki obyekt yüksək vəzifəli şəxsə aid olduğundan sonra davam edəcək.

Ötən saylarımızın birində qeyd etdiyimiz kimi, tikintiyə Xətai rayonunun icra başçısı Razim Məmmədovun icazə verdiyi və himayə etdiyi bildirilir.

Qeyd edək ki, bu, ərazidə yeganə qanunsuz tikili deyil. Məhəmməd Hadi küçəsində də sözügedən obyektin yanında bir neçə tikinti işi gedir. Ən acınacaqlı məqam isə tikintinin yolun bir neçə metrliyində tikilməsidir. Həmin tikintilərdən birinin şadlıq sarayı olacağı gözlənilir.

Sakinlərin dediyinə görə, hazırda restoranın sahibi həbsdə olduğundan tikinti dayanıb. Ağacların ehatəsində isə bir neçə hündürmərtəbəli obyektin tikintisi gedir. Əlavə edək ki, ərazidə yaşıllığın qalan hissəsi də məhv edilir. Dəfələrlə yazılsa da, heç bir tədbir görülmür. Artıq heç kimə sirr deyil ki, Xətai rayonu Bakıda yaşıllığın ən çox məhv edildiyi rayondur.

❑ **M.SALMANOV**
**Fotolar müəllifindir**









# Sabirabadda camış insanlara hücum edib, ölən və yaralanan var

**Sabirabadda camış insanlara hücum edib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 10-da Sabirabad rayonunun Qarağac kəndində kənd sakini Şəmsi İbrahimova məxsus camış ona və həmyerlisi Rafiq Əzizova müxtəlif dərəcəli xəsarətlər yetirib.**

Ş.İbrahimov hadisə yerində ölüb.

YENİ MÜSAVAT

Son səhifə

N 175 (6203) 12 avqust 2015




## Oğulları üçün ölümü seçdilər

Amerikanın Nyu-Meksika ştatında avtomobilləri səhrada xarab olan ailə 38 dərəcə istidə saatlara yol getdikdən sonra son sularını övladlarına veriblər. Ailədən xəbər alınmadığı üçün xüsusi bir qrupu onları tapmaq üçün axtarışa çıxıb. Fransız cütlük səhrada ölü halda tapılıb. 10 yaşlı oğulları isə xəstəxanaya çatdırılıb. Həkimlər Enzo adlı uşağı səhhətinin yaxşı olduğunu deyiblər. Uşağın Fransaya göndərilərək nənəsinə təslim ediləcəyi bildirilib. 5 həftəlik tətilləri zaman Amerikanın qərbini gəzmək istəyən cütlüyün "White Sands" adlı beynəlxalq parkda ölməsi yaxınlarını yasa boğub. Polislərin sözlərinə görə, ailə tapıldığı zaman ata-anası ölmüşdü, lakin uşaq onları yanında uzanaraq nəfəs alırdı. Mütəxəssislərin sözlərinə görə, ora çox isti olduğu üçün orada susuz gəzmək çox təhlükəlidir. 2009-cu ildə bir amerikalı, 2011-ci ildə isə bir yapon turist susuzluqdan ölüb.



## Kişilər daha gec unudurlar

Amerikanın Bringamton və College London universitetlərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, kişilər sevdikləri qadından ayrıldıqdan sonra daha çox əziyyət çəkirlər. Qadınlar ayrılıq sonra ətraflarından dəstək alırlar və qısa müddət sonra özlərini toplayırlar. Kişilər isə illər sonra belə ayrılığın onlara pis təsirlərindən danışırlar. 95 ölkədə 5 min 705 nəfər üzərində aparılan araşdırma göstərib ki, qadınlar ayrılıqdan sonra əsəbi olurlar və qorxurlar. Kişilər isə depressiyaya düşürlər.

# Naziri arıqladan ayaqqabısı

Son zamanlarda bədəninin çəkisini qorumaqda çətinlik çəkən İngiltərənin baş naziri Devid Kemeronun ümidini arıqladan ayaqqabılara bağladığı məlum olub. Kemeron Portuqaliyada tətildə ikən arıqlamağa və əzələləri sürətləndirməyə kömək edən ayaqqabılar geyinməyə başlayıb. İngiltərə mediasında yayımlanan şəkildə görünür ki, baş nazir həyat yoldaşı ilə bir kafedə oturub. Şəkildəki ən diqqət çəkən məqam Kemeronun ayağındakı 50 sterlinqlik ayaqqabılardır. Çəkisinə nəzarət edə bilməyən baş nazir sonunda bu yola baş vurub. Ayaqqabını istehsal edən şirkətdən verilən məlumatlara görə, ayaqqabılar sahibi yeriyərkən daha çox kalori yandırmasını və ayaq əzələlərinin xüsusi formaya düşməsinə kömək edir.



# Ata 5 yaşlı qızına "toy" etdi

ABŞ-da yaşayan bir ailə 5 yaşlı qızının ad günündə onun toyunu da qeyd edib. İyulun 31-də Lila May adlı qızın 5 yaşı tamam olub. Amma balaca qızcığaz xərçəng xəstəliyindən əziyyət çəkir. Xəstəliyi çox inkişaf etdiyinə görə həkimlər onun növbəti ad gününə qədər yaşaya bilməyəcəyini deyiblər. Onlar Lilanın oktyabr ayına qədər yaşamasını belə möcüzə hesab edirlər. Lilanın bədəni kifayət qədər qüvvətli olmadığı üçün kimyaterapiya müalicəsini də yarımçıq saxlamağı məsləhət görüblər. Bu dəfə ad gününün onun sonuncu ola biləcəyini düşünən ailəsi ona xüsusi ad günü şənliyi təşkil etmək qərarına gəlib. Bunun üçün Lila May haqqında "Facebook"da xüsusi səhifə yaradılıb. Bu səhifədə onun ad günü şənliyi haqqında məlumat veriləndən sonra minlərlə insan ona dəstək olub. Ailənin təşkil etdiyi qeyri-adi ad günü şənliyinə minə yaxın tanımadıqları insanın gəlməsi ailəni də çox təəccübləndirib. Ad günü şənliyini də elə həmin səhifə vasitəsilə toplanan vəsait hesabına ediblər. Şənlikdə şahzadə paltarı geyinən Lila qırmızı xalça üzərində yeriyib. Valideynləri balaca qızcığazın yeniyetməlik və gənclik illərində yaşayacağı bütün xoş günləri bir günə sığışdırıb 5-ci ad günündə ona həm məzuniyyət şənliyi, həm də toy ediblər. Saxta toyda balaca Lila ögey atasının "evlilik təklifi"nə "hə" deyib, onunla amerikalılara xas olan toy rəqsi edib.





## "iPhone 7" təqdim olunacaq

"Apple" şirkəti 9 sentyabrda yeni "iPhone" smartfonunu təqdim edəcək. ANS PRESS-in məlumatına görə, "BuzzFeed News" saytı öz mənbələrinə istinadən yazır ki, "Apple" şirkəti sentyabrın ikinci həftəsində keçirəcəyi mətbuat konfransında "iPhone" smartfonunun yeni versiyasını - "iPhone 7"ni və "Apple TV" təqdim edəcək. İnternet nəşri həmçinin xatırladır ki, ötən ilki tədbir, yəni iPhone 6-nın təqdimatı da 9 sentyabr tarixində keçirilmişdi. Hələ ki "Apple" şirkəti bu informasiyanı rəsmi təsdiq və ya təkzib etməyib. "Apple"ın fəaliyyətini izləyən digər nəşrlər bildiriblər, "BuzzFeed" adətən öz proqnozlarında səhv etmir. "Apple", həmçinin "iPad" planşet kompüterinin yeni modelini təqdim edə bilər. "iPhone 7"nin necə olacağı bu telefon həvəskarlarının hər birini maraqlandırır. Səbirsizliklə gözlənilən yeni smartfon cihazı haqqında artıq bəzi məlumatlar var. Növbəti nəsil "iPhone" smartfonu "Force Touch" ekranı, "A9" prosessoru və təkmilləşdirilmiş kamera ilə təchiz ediləcək.




**QOÇ** - İkitərəfli əlaqələr uğur gətirə bilər. Bu səbəbdən də potensial imkanlarınızdan bacardığınız qədər istifadə etməlisiniz. Hər bir işdə Allahı yada salın. Məntiqsiz iş görməyin.

**BUĞA** - Kənardan köməyə ehtiyac duyduğunuz hiss olunur. Göy qübbəsi bu istiqamətdə sizə yardımçı olacaq. Amma özünüz də passiv dayanmayın. Nahardan sonra şəxsi büdcənizdə artım ola bilər.

**ƏKİZLƏR** - Təəssüf ki, astroloji göstəricilər bu təqvimin passiv keçəcəyini bəyan edir. Münaqişələrə cəlb olunmaq istəmirsinizsə, iradəli və təmkinli olun. Bir az müşahidəçi rolu oynayın.

**XƏRÇƏNG** - Durumunuzdan bəlli olur ki, etibar etdiyiniz adamların əksəriyyəti sözünədüz şəxslər deyil. Bu isə sizin üçün həmişə problem yaradır. Odur ki, belə məsələlərdə sərt olmağa çalışın.

**ŞİR** - Yeniliklərlə dolu bir tarix yaşayacaqsınız. Qeyri-adi hadisələr, tanışlıq, əməkdaşlıq, eşqə düşmək və s. kimi amillər bu bürcün müvafiq adamlarının rastlaşacağı hadisələrdən olacaq.

**QIZ** - Bəxtinizdə riskli bir gün durub. Amma qorxmağa dəyməz. Çünki bu gün Göy qübbəsi sizi müdafiə etməkdədir. Təxminən saat 15-dən sonra şəxsi işlərinizdə böyük dönüş yarana bilər.

**TƏRƏZİ** - Kifayət qədər uğurlu gündür. Bir tərəfdən şəxsi işlərinizdə müsbət qığılcımlar, digər tərəfdənsə maliyyə işlərinizin qaydasına düşməsi əhval-ruhiyyənizi xeyli yüksəldəcək.

**ƏQRƏB** - Müəyyən qədər gərginliklə üzləşmə ehtimalınız var. Odur ki, həmkarlarınızla, eləcə də qonum-qonşu ilə ünsiyyətdə səmimi olmağa çalışın. Ciddi işləri təkbaşına həll etməyin.

**OXATAN** - Fəaliyyət göstərdiyiniz obyektlərdə mülayim davranın və hər kəsin ovqatını yüksəltməyə çalışın. İlahidən üzərinizə düşən bu missiyanı reallaşdırsanız, uğurlar qapısını açacaqsınız.

**OĞLAQ** - Bəxtinizdə əyləncəli məqamlar durur. Bu səbəbdən də qonaq getmək, dostlarla birlikdə əylənmək və ya səfərə çıxmaq sərfəlidir. Özünüzü təkəbbürlü aparmaqdansa, sadəliyə üstünlük verin.

**SUTÖKƏN** - Hər mənada düşərli gündür. Ədalətli cəhdlərinizin əksəriyyəti reallığa yaxınlaşacaq. Paxıllıq və qisas hissindən uzaq olun. İntim əlaqə və uzaq səfərlər isə ümumiyyətlə, yolverilməzdir.

**BALIQLAR** - Bu gün imkan daxilində riskli işlərdən yan qaçın. Amma etibar etdiyiniz adamlar dəstək versə, axşama doğru planlarınızı reallaşdırmaqda çətinliyiniz olmayacaq. Ağır qidalardan uzaq durun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uçan maşına 10 il qaldı



Rusiyanın Pskov Dövlət Universiteti 10 il sonra istifadə ediləcək olan uçan maşını düzəltmək üçün proje hazırlayır. "İzvestiya" qəzetində yer alan xəbərə görə, uçan maşının qanadları fərli olacaq. Maşın ümumi böyüklüyündən kənara çıxmayacaq və 4 pərvanədən ibarət olacaq. Maşının tam görünüşü hələ hazır olmasa da, bu maşının pis yollar və Rusiyanın geniş torpaqları üçün əlverişli olacağı deyilir. İki nəfərlik maşının 4 metr uzunluğu və 2 metr eni olacaq. Ümumi çəkisi 1 ton olacaq olan maşın üçün hazırlanmalı olan xüsusi motorun 10 il ərzində hazırlana biləcəyi güman edilir.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.